Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

19 FEVRAL 2019-cu il

№ 33 (3931)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ERMƏNİSTAN ƏBU-DABİDƏ BEYNƏLXALQ SİLAH SƏRGİSİNDƏ - İSLAM ÖLKƏLƏRİNİN MƏSCİD DAĞIDAN DÖVLƏTƏ DAHA BİR QUCAQ AÇMASI...

■ səh. 8 ■

## «Su-30» qırıcıları da Azərbaycan üzərində Ermənistana hərbi üstünlük təmin edə bilməyəcək...



■ səh. 9 ■

Azərbaycan «Su-30»dan güclü qırıcılar almağa hazırlaşır





## Mikayıl Cabbarovun sahibkarlara qəti sözü - «bulanıq suda balıq tutmaq zamanı keçdi»

■ səh. 10 ■

## «Çeçen uğursuzluğundan» sonra Rusiyada Azərbaycan diasporunun yeni milli münaqişələrə çəkilmək ehtimalları...

■ səh. 6 ■

## Ermənistanda araq-konyak biznesi Paşinyanın iqtisadi islahatlarına qarşı qalxdı...

■ səh. 7 ■


Prezidentin Sumqayıtda açdığı zavod qeyri-neft ixracını 15 faiz artıracaq ■ səh. 3 ■

"Cənub Qaz Dəhlizi" - dünya enerji təhlükəsizliyində mənbə və marşrut şaxələndirilməsi üzrə ilk layihə... ■ səh. 7 ■

Paşinyanın iqtisadi inqilab konsepsiyası ilk başlanğıcında çökdü... ■ səh. 8 ■

Milli Şuradan Rüstəm İbrahimbəyovun Bakıya gəlişinə ilk reaksiya... ■ səh. 5 ■

Tək bir ildə 3,8 milyard manatlıq sənaye istehsalı - Bir ildə rəqəm neçə dəfə böyüyəcək... ■ səh. 11 ■

Azərbaycan özəl mebel sənayesinin rəqabət qabiliyyətsizliyi getdikcə daha da dərinləşir... ■ səh. 11 ■

"AZZA" ofisi tortun içindən çıxmış yad cisimlə bağlı niyə açıqlama vermək istəmədi? ■ səh. 12 ■

Gənc aşıqlar arasında dastan bilgisizliyi hökm sürür... ■ səh. 15 ■


■ səh. 4 ■

Müxalifətçilik missiyası və Azərbaycanın milli maraqları



■ səh. 13 ■

Deputat Gəncədəki anormal heykəlin Cavad xana məxsusluğunu birmənalı inkar etdi...



■ səh. 6 ■

Çeçen-Azərbaycan münasibətlərində intensiv erməni fitnəkarlığının uzaq və yaxın hədəfləri...



■ səh. 12 ■

İqtisadçı-alim "Fitch"in Azərbaycanda iqtisadi artımla bağlı dediyi rəqəmlə razılaşmadı...



■ səh. 14 ■

"Boz ədəbiyyata xidmət edən qadınlar müxtəlif vasitələrlə müxtəlif alimlərin, akademiklərin yanına yollar tapırlar və onları bezdirib kitabları üçün "xeyir-dua" alırlar"





## Prezident İlham Əliyev Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisini qəbul edib

**Prezident İlham Əliyev fevralın 18-də Böyük Britaniyanın Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Baki-xeber.com-un prezidenr.az saytından əldə etdiyi xəbərə görə, görüşdə Böyük Britaniyaya səfərini və Baş nazir xanım Tereza Meylə görüşünü məmnunluqla xatırlayan Prezident İlham Əliyev Baronessa Emma Nikolsonun Azərbaycanla Böyük Britaniya arasında dostluq və tərəfdaşlıq əlaqələrinin inkişafındakı rolunu və verdiyi töhfələri yüksək qiymətləndirir.

Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Meyin salamlarını dövlət başçısına çatdırıb.

Görüşdə Cənub Qaz Dəhlizi Məşvərət Şurasının növbəti iclasının Bakıda keçirilməsinin önəmi vurğulanıb, Azərbaycanla Böyük Britaniya arasında enerji sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyi qeyd olunub.

Söhbət zamanı ölkələrimiz arasında səhiyyə, turizm, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb, əlaqələrimizin inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulanıb.

Dövlət başçısı Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Meyin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Böyük Britaniyanın Baş nazirinə çatdırmağı xahiş edib.

# Sumqayıtda bir tələbə Prezidentdən nə istədi?

**Prezident İlham Əliyev fevralın 18-də Sumqayıta səfəri çərçivəsində burada inşa edilən dənizkənarı bulvarda yaradılan şəraitlə tanış olub və dənizkənarı bulvarda Sumqayıt sakinləri dövlət başçısına yaxınlaşaraq onunla söhbət ediblər.**



Bir tələbə Prezidentlə maraqlı mövzuda danışıb və istəyini dilə gətirib: "Sizi bir tələbə kimi salamlayıram, bizim Sumqayıtımıza xoş gəlmisiniz. Tələbələrin təqaüdünü artırdığınıza görə Sizə çox təşəkkür edirəm. Tələbələr adından Sizdən bir xahişim də var. Sumqayıt Dövlət Universitetinin, şəhərdəki kolleclərin yataqxanalarındakı məcburi köçkünlərin köçürülməsini və biz tələbələrin orada yerləşdirilməsi üçün göstəriş verməyinizi Sizdən xahiş edirik".

Prezident İlham Əliyev cavabında "Biz bu məsələni də həll edəcəyik. Bu il bu məsələ həll olunmalıdır" deyib.

# Ermənilər Xocalıdan 10 gün əvvəl Qaradağlıya divan tutdu - 91 nəfər qətlə yetirildi...

**Xocavənd rayonunun Qaradağlı kəndinin Ermənistan tərəfindən işğal edilməsindən və kənd sakinlərinin soyqırımına məruz qalmasından 27 il ötür. Xocavənd rayonunda bu münasibətlə anım tədbiri keçirilib.**

Komitədən "Bakı-Xəbər"ə verilən məlumata görə, tədbirdə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev, Xocavənd rayon icra hakimiyyətinin başçısı Eyvaz Hüseynov, Dövlət Komitəsinin və yerli icra orqanlarının əməkdaşları, mətbuat və ictimaiyyət nümayəndələri iştirak edib.

Əvvəlcə vətənimizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərin xatirəsini əbədiləşdirmək məqsədilə Nərgiztəpədə ucaldılmış abidə kompleksi ziyarət edilib.



Faciənin ildönümü ilə əlaqədar keçirilən tədbirdə qeyd olunub ki, 4 il erməni işğalçılarına qarşı mübarizə aparan Qaradağlı kəndində Qarabağ müharibəsinin ən dəhşətli faciələrindən biri yaşanıb. Erməni quldurlar 1992-ci il fevralın 17-də kəndi işğal edərək yandırıb, dinc əhaliyə qarşı soyqırımı həyata keçiriblər. Kəndin 91 sakini amansızcasına qətlə yetirilib, 200 ev, 1 mədəniyyət evi, 320 yerlik orta məktəb binası, 25 çarpayılıq xəstəxana binası və digər obyektlər, azərbaycanlılara məxsus tarixi, dini, mədəni abidələr və qəbiristanlıq dağıdılıb. Kəndin 800 nəfərə yaxın sakini məcburi köçkün düşüb.

Dövlət Komitəsinin sədri Rövşən Rzayev çıxışında vurğulayıb ki, Dağlıq Qarabağda erməni separatizminin baş qaldırması, Ermənistanın yenidən ərazi iddiaları irəli sürməsi və işğal siyasəti aparması Azərbaycanın o vaxtkı rəhbərliyinin səriştəsizliyi və qətiyyətsizliyi ilə əlaqədar idi. Təəssüf ki, həmin dövrdə respublikaya rəhbərlik edən şəxslər öz məsuliyyətini dərk edə, milli maraqlarımızı qoruya bilmirdilər.

Xocavənd rayon icra hakimiyyətinin başçısı Eyvaz Hüseynov çıxışında qeyd edib ki, Qaradağlı faciəsinin dünya ictimaiyyətinə çatdırılması məqsədilə Azərbaycan dilində və xarici dillərdə "Soyqırımı: Qaradağlı", "Soyqırımı Qaradağlı: davam edir..." və "Qaradağlı, mübarizə" sənədli filmləri çəkilib. Ermənistan silahlı qüvvələrinin Qaradağlı kəndində törətdiyi soyqırımı ilə bağlı "Qaradağlı soyqırımı şahidlərin dili ilə" kitabı hazırlanıb. Bundan başqa, şəhidlərin xatirəsini əbədiləşdirmək üçün Yeni Qaradağlı, Yeni Xocavənd qəsəbələrində və Nərgiztəpə ərazisində abidə kompleksləri ucaldılıb. Rayonun sosial-iqtisadi inkişafı sahəsində əldə edilmiş uğurlardan, məcburi köçkünlərin problemlərinin həlli ilə bağlı görülən işlər barədə də məlumat verilib.

Tədbirdə Xocavənd rayonundan olan ziyalılar, Qaradağlı sakinləri çıxış edib.

Sonda Qaradağlı faciəsinə həsr edilmiş film nümayiş olunub.

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

**«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu -**

# Abunə!

Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.

1 aylıq abunə qiyməti - **8 AZN**
3 aylıq abunə qiyməti - **24 AZN**

**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**

**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96
**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83
**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02

## Britaniyada kilsənin üzərində nəhəng Rusiya bayrağı asıldı - Britaniya ilə Rusiya arasında yeni qalmaqal...

**Keçən il keçmiş sovet agenti Sergey Skripalın zəhərlənməsinə görə Böyük Britaniya ilə Rusiya arasında yaranmış böhran daha da dərinləşir.**



Baki-xeber.com xəbər verir ki, Britaniyanın Solsberi şəhərində XIII əsrdə inşa edilmiş və hazırda bərpası davam edən Müqəddəs Məryəm Ana Kafedral Kilsəsi üzərinə Rusiya bayrağının asılmasına görə iki ölkə arasında gərginlik yenidən artıb. Nəhəng Rusiya bayrağı kilsə üzərində bazar günü iki nəfər tərəfindən asılıb. Britaniya mətbuatı Skripal olayından sonra Rusiyanın nəhəng bayrağı ilə Britaniyaya əzələ nümayiş etdirdiyini yazır. Rusiya konsulluğu isə bayrağın ruslar tərəfindən asılmadığını, hadisə ilə heç bir bağlılığının olmadığını bildirib. Hadisəni təxribat kimi dəyərləndirən konsulluq bunun Skripal olayı ilə bağlantısının da üzücü olduğunu deyib.

**Prezident İlham Əliyev fevralın 18-də Sumqayıt Kimya Sənaye Parkında "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən yüksəksıxlıqlı polietilen zavodunun açılışında iştirak edib. "Trend" Prezidentin Mətbuat Xidmətinə istinadən xəbər verir ki, Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və "SOCAR Polymer" MMC-nin baş direktoru Fərid Cəfərov dövlət başçısına görülən işlərlə bağlı məlumat verib.**





# Prezidentin Sumqayıtda açdığı zavod qeyri-neft ixracını 15 faiz artıracaq







"SOCAR Polymer" Azərbaycanın neft-kimya sənayesində dövlət-özəl sektor tərəfdaşlığı üzrə yaradılan ilk şirkətdir. Layihəni həyata keçirmək üçün İtaliyanın "Maire Tecnimont", Niderlandın "Fluor" şirkətləri və digər şirkətlər cəlb edilib.

Kollektivlə görüşdə çıxış edən Prezident İlham Əliyev deyib:

- Mən çox şadam ki, bu zavodda işləyənlərin mütləq əksəriyyəti gənclərdir...Keçən il polipropilen zavodunun açılışı rəsmi qaydada qeyd olundu. Bu gün isə biz yüksək sıxlıqlı polietilen zavodunun açılışını qeyd edirik. Beləliklə, "SOCAR Polymer" tam gücü ilə işə başlayır. Bu, çox əlamətdar hadisədir. Bu, ölkəmizin inkişafını göstərir. Bu, ölkəmizə xarici maliyyə qurumları tərəfindən inamın təzahürüdür. Çünki bildiyiniz kimi, bu zavodun tikintisində xarici banklar fəal iştirak ediblər. Bu, bütövlükdə ölkəmizdə gedən sənayeləşmə siyasətinin gözəl nəticəsidir.

Siz - burada çalışan gənclər yaxşı bilirsiniz ki, zavodun istehsal gücü 300 min ton olacaqdır. Bu, bizim qeyri-neft ixracımızın 15 faiz artımı deməkdir. Bizim əsas məqsədimiz qeyri-neft ixracını artırmaq, ölkə iqtisadiyyatını şaxələndirmək, yeni iş yerləri açmaq və Azərbaycanda müasir texnologiyalı müəssisələrin yaradılmasına nail olmaqdır.

Keçən il qeyri-neft sektorunda sənaye istehsalı 9 faizdən çox artmışdır, bu ilin birinci ayında isə 14 faizə yaxın artmışdır, o cümlədən bu zavodların fəaliyyətə başlaması nəticəsində. Bu zavodun fəaliyyətə başlaması Sumqayıt şəhərinin ümumi inkişafına da böyük töhfədir.

Prezident İlham Əliyev fevralın 18-də Sumqayıta səfəri çərçivəsində burada inşa edilən dənizkənarı bulvarda yaradılan şəraitlə də tanış olub.

Prezidentin Mətbuat Xidmətindən agentliyə verilən məlumata görə, dənizkənarı bulvarda Sumqayıt sakinləri dövlət başçısına yaxınlaşaraq söhbət ediblər. Bəzi nümunələr...

Sakin: Hörmətli Prezidentimiz, Sizin bu gəlişiniz Sumqayıt üçün, bizim üçün toy-bayramdır. Bunun iki böyük amili, bir nəticəsi var. O amilin biri odur ki, hörmətli Prezidentimiz, Ali Baş Komandanımız xalqın arasındadır. İkinci böyük amil ondan ibarətdir ki, ölkəmizin bütün əhalisi, bütün sakinləri Prezidentimizin tərəfindədir. Bunun nəticəsi nədir? Nəticə odur ki, xalqla Prezidentin böyük monolit birliyi var. Bəzən elə olur ki, öz ayaqqabısının ölçüsü qədər bir iş görə bilməyənlər bu qədər gözəlliyə, bu qədər inkişafa ağız büzürlər. Amma onlar bu monolit birliyin qabağında dura bilməzlər, qəti dura bilməzlər.

Sakin: Bir şəhid anası kimi, leytenant anası kimi Sizə çox-çox təşəkkür edirəm ki, bütün şəhid ailələrinə yardım etdiniz, kömək etdiniz. Onların başının üstündə həmişə bir ata, oğul, qardaş kimi olasınız.

Sakin: Mən zabitəm, Qarabağ döyüşlərində iştirak etmişəm, qaziyəm. Əvvəla, Sizə "Xoş gəlmisiniz!" deyirik, Allah Sizi qorusun. Siz Azərbaycanın başının tacı olan şəhidlərin ailələrini qəbul etdiniz, o duyğulu anları biz indi də yaşayırıq. Bir daha sübut etdiniz ki, həmin yaşlı şəhid ailələrinin bir oğlusunuz, bu gün həddi-buluğa çatan şəhid övladlarına bir böyük qardaşsınız.

Sakin: Sizi bir tələbə kimi salamlayıram, bizim Sumqayıtımıza xoş gəlmisiniz. Tələbələrin təqaüdünü artırdığınıza görə Sizə çox təşəkkür edirəm. Tələbələr adından Sizdən bir xahişim də var. Sumqayıt Dövlət Universitetinin, şəhərdəki kolleclərin yataqxanalardakı məcburi köçkünlərin köçürülməsini və bizim tələbələrin orada yerləşdirilməsi üçün göstəriş verməyinizi Sizdən xahiş edirik.

Prezident İlham Əliyev: Biz bu məsələni də həll edəcəyik. Bu il bu məsələ həll olunmalıdır.

**Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, professor Əli Həsənov facebook səhifəsində "Müxalifətçilik missiyası və Azərbaycanın milli maraqları" sərlövhəli məqaləsini yerləşdirib. AZƏRTAC mövzuya ictimai marağı nəzərə alaraq məqaləni təqdim edir.**

# Müxalifətçilik missiyası və Azərbaycanın milli maraqları

*Əli Kərimli Azərbaycana Suriyanın "inqilab təcrübə"sini idxal etmək istəyir, Azərbaycan hakimiyyəti isə dünyaya "ASAN xidmət" inqilabının təcrübəsini yayır*



1988-ci ildən bəri Azərbaycanın aktiv siyasi həyatındayam. 1993-cü ildən isə Prezident komandasında vətəndaş cəmiyyəti təsisatları - QHT-lər, KİV-lər və siyasi partiyalarla əlaqələrlə birbaşa məşğul oluram. Məsuliyyətlə söyləyə bilərəm ki, bütün fəaliyyətim dövründə həm dövlətimizin qurucusu ümummilli lider Heydər Əliyev, həm də onun siyasi varisi Prezident İlham Əliyev siyasi plüralizmi və çoxpartiyalı sistemi Azərbaycanın demokratik inkişafının təməl prinsipi kimi görüblər, ölkədə vətəndaş cəmiyyətinin mühüm seqmenti olaraq həm ictimai, həm də siyasi opponentlik mexanizmlərinin işlək və çevik olmasına çalışıblar, çoxrəngli ideoloji-siyasi palitranın mövcudluğunu arzu ediblər. Çünki cəmiyyətdəki fərqli kəsimlərin, o cümlədən müxalifətin də cari proseslərə, gələcəyə hesablanmış konsepsiyalara baxış və rəylərini bilmək, alternativ ideyaları dəyərləndirmək və yeri gələndə, ən azı ehtiyat variant olaraq nəzərdə saxlamaq təkcə rasional idarəçilik baxımından deyil, həmçinin hakimiyyətdə olan komandanın istənilən siyasi rəqabətə daim hazırlıq formasında qalması üçün vacib şərtdir.

Hakim komandanın məsul üzvlərindən biri olaraq məhz bu yanaşmanı əsas götürməklə ötən illər ərzində ölkənin siyasi səhnəsində yer alan, yer almaq istəyən, siyasi proseslərə istər açıq, istərsə də dolayı şəkildə təsir göstərməyə cəhd edən çeşidli qrupların, ayrı-ayrı şəxslərin fəaliyyətini müşahidə və təhlil etmək imkanım olub. Qənaətlərimi qısa və ən ümumi şəkildə belə ifadə edə bilərəm: əks düşərgənin ümumi tablosunda konstruktiv qüvvələr də yer alıb, destruktiv qüvvələr də; bir zamanlar özlərini "milli demokrat" adlandıran, amma sonradan Avropa Liberal Demokrat İttifaqına qatılmaq naminə dəyərlərini dəyişən sağçılar da var, özlərinə gah şimalda, gah da cənubda himayədar axtaran solçular da; dünyəvi konstitusion quruluşu əsl dövlətçilik istehkamı olaraq qorumağa hazır olan sekulyarlar da məlumdur, bu quruluşu istiqlalımız qarşıq öpdükləri əlin fitvasına təslim etməyə hazır olan klerikallar da. Sosial bazası, ictimai dəstəyini Azərbaycan xalqı arasında axtaran və siyasi perspektivini milli iradəyə bağlayan qüvvələrin də şahidi olmuşuq, bütün iddialarını xarici paytaxtlardakı qaranlıq kulislərdə qəbul ediləcək hansısa qərarların öhdəsinə buraxanları da. Lakin Azərbaycanın müstəqil bir dövlət kimi öz əzələlərini möhkəmləndirməsi, ehtiyac yarananda, müstəqilliyimizi istəməyən qüvvələrə nümayiş etdirməsi, regional gücə, beynəlxalq arenada söz sahibinə çevrilməsi baxımından yetərincə təlatümlü keçən ötən illərdən hasil etdiyim bir qənaət də budur ki, milli mənafelərə, ümumi və strateji maraqlara çox asanlıqla arxa çevirərək dövlətə və dövlətçiliyə qarşı opponentlik edən əsas siyasi qruplardan biri Əli Kərimli və onun çevrəsindəki şəxslərdir.

Bu maddi maraq qrupu ta komsomolçu keçmişlərindən üzü bəri daim "maliyyəni verən musiqini də sifariş edər" devizi ilə hərəkət edərək, əvvəlcə mənsub olduqları siyasi partiyanın paramparça vəziyyətə düşməsi üçün heç nədən, hətta liderlərinə xəyanət etməkdən də çəkinməyiblər, sonra isə qazandıqları "təcrübəni" Azərbaycan dövlətinə, xalqına, milli maraqlarımıza qarşı istifadə etməyə başlayıblar. Hazırda bu qrup milli dəyər, məfkurə və müqəddaratımıza zidd olan ritorikaları ilə Azərbaycanda böyük vüsətlə gerçəkləşən və son zamanlar daha da intensivləşən islahatlara hər addımbaşı kölgə salmaq yolunu tutublar.

Sirr deyil ki, Prezident İlham Əliyev həyata keçirdiyi bir çox islahatların nəticəsi kimi son aylarda büdcəmizin artan imkanlarını sosial problemlərin həllinə yönəltdikdən, iqtisadi liberallaşmanı sürətləndirdikdən, siyasi plüralizmin genişlənməsi və bütövlükdə ölkəmizdə insan kapitalının sürətli inkişafına xidmət edən çoxsaylı qərarlar qəbul etdikdən sonra məlum xarici anti-Azərbaycan qüvvələr daha da fəallaşıblar. Bu qüvvələr xaricdəki anti-Azərbaycan şəbəkəsi və ölkəmizin daxilindəki "beşinci kolonu", bir çox digər uzantılarını, o cümlədən Əli Kərimlini və onun qrupunu fəallaşdıraraq işə qoşublar.

Əli Kərimlinin xaricdə mənzil tapan internet resurslarından birinə müsahibə verərkən Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan hakimiyyətinin həyata keçirdiyi effektli siyasəti öz merkantil maraqları çərçivəsində şərh etməyə çalışması da həmin şəbəkənin fəaliyyətinin bir təzahürüdür. Bəri başdan qeyd edim ki, Əli Kərimlinin müsahibədə səsləndirdiyi fikirlərin hamısı əsassız, reallıqdan uzaq, onun daxili aləminin inikası olmaqla, dövlətə və xalqa son dərəcə yad münasibətinin, ikrahla yanaşmasının ifadəsidir. İrəli sürdüyü və heç bir arqumentə tab gətirməyəcək iddialarının əsasında dayanan motiv də aydındır. O, hər vəchlə hakimiyyət və onun həyata keçirdiyi siyasət barədə cəmiyyətdə formalaşmış müsbət rəyi qaralamağa çalışır.

Görünən reallıq odur ki, istər daxili siyasətdə, istərsə də diplomatik müstəvidə İlham Əliyev hakimiyyətinin qazandığı hər bir uğur Əli Kərimli və bu tipli insanların siyasi iflasını dərinləşdirir, onları cəmiyyətin dinamikasından geridə qoyur, ictimaiyyətin diqqət mərkəzindən uzaqlaşdırır. Belə olan halda isə, onlar özlərini nəinki hakimiyyət uğrunda mübarizənin real subyekti kimi təqdim edə bilmirlər, hətta əbədi müxalifət titulunu da itirmək təhlükəsi ilə üzləşərək xaricdən ötürülən maliyyələrdən məhrum olacaqlarını real təhlükə kimi gözlərinin qarşısına alırlar. Odur ki, sağlam müxalifətçilik zehniyyəti ilə yürüdülən siyasəti təhlil etmək, əgər varsa, onun nöqsanlarını göstərmək, mümkün çətinliklərə diqqət çəkmək, bu yolla müəyyən düzəlişlərə nail olmaq deyil, həmin siyasətin gerçəkləşməsi üçün zəruri olan resurs və alətləri sıradan çıxarmağa, müsbət indikatorları zərbə altına salmağa çalışırlar. Qara niyyətlərinə ağ yalanlarla heç cür bəraət qazandıra bilmədikləri hallarda isə, iddia etməyə başlayırlar ki, guya, Azərbaycan hakimiyyətinin son qərarları və addımları yanvarın 19-da müxalifətin keçirdiyi etiraz aksiyasının nəticəsidir. Axı ölçüsü, tutumu hər kəsə bəlli olan bir meydanda üç-beş min adamın iştirak etdiyi mitinq tribunasından hansı dəyərli və təzə fikir səsləndi, yeni proqram açıqlandı, hansı fərqli yol xəritəsi elan edildi ki, Azərbaycan hakimiyyəti onlara xüsusi diqqət yetirməli oldu? Doğrudanmı, bu adamlar sadə riyazi hesablamalar apara, bütün güclərini ortaya qoyub "Məhsul" stadionuna yığdıqları bir neçə min adamın Azərbaycanda elektoratın son dərəcə cüzi, sıfıra yaxın bir hissəsini təşkil etdiyini, tərəfdarlarının hətta ölkədə mövcud olan seçki məntəqələrinin sayından da az olduğunu görə bilmirlər? Onlar görməsə də, Azərbaycan cəmiyyəti hər şeyi yaxşı görür! Azərbaycan cəmiyyəti yaxşı görür ki, 25 ildən artıq bir müddətdə müxalifət düşərgəsində ərsəyə gətirilən "birlik formatları"nın hər biri mövsümi xarakter daşıyıb, fəslin başında "bu dəfə gəlirik" deyə bir-birinə ümid və təsəlli verənlər axırda yabalaşmaya çıxıblar.

Azərbaycan cəmiyyətinin və onun önəmli bir kəsimi olan gəncliyin nəzərindən yayınmır ki, əvvəllər müxalif düşərgədə yaranan birlik formatlarının avanqard qüvvəsini keçmiş hakimiyyətin "bəlkə də qaytardılar" ümidi ilə yaşayan nümayəndələri təşkil edir. İndi heç keçmiş hakimiyyət nümayəndələri də haçansa tutduqları postlara yenidən qovuşmaq üçün Əli Kərimlinin liderliyini qəbul etmir, onu öz revanş arzularının ifadəçisi kimi görmürlər. Belə olan təqdirdə yeni nəsil niyə öz karyera imkanlarını AXCP-nin sıralarında puç etməlidir?

Ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə gəlişinin ilk ilində orta məktəbin birinci sinfinə gedən şagirdlər hazırda yeni təhsil sistemi üzrə magistr dərəcəsi əldə ediblər. Onların bir qismi akademik elmi fəaliyyətlə məşğul olmaq üçün təhsilini davam etdirir, xeyli hissəsi isə dövlət qurumlarında, özəl müəssisə və şirkətlərdə çalışır. Onlar bilirlər ki, həm mövcud dövlət idarəçilik sistemi, həm də özəl sektor Azərbaycanda məhz ümummilli lider Heydər Əliyevin, onun siyasi kursunun davamçısı Prezident İlham Əliyevin hakimiyyəti sayəsində bərqərar olub. Azərbaycan gəncliyinin məhz bunun fərqində olmasının nəticəsidir ki, Əli Kərimlinin sədrlik etdiyi təşkilatda son bir neçə ildə ali məktəbdən məzun olmuş, dövlət qurumlarını heç demirəm, özəl sektorda uğur qazanmış, vətəndaş cəmiyyəti qurumlarında, mətbuatda öz intellekti və istedadı ilə önə çıxmış gənclər yox səviyyəsindədir. Belə bir ölü təşkilat və həmin təşkilatın sədri ictimai-siyasi proseslərə hansı müsbət dinamika gətirə bilər ki?

İndi ən ucqar kəndlərimizdə böyüyən gənclər dövlətin himayəsi sayəsində aparıcı xarici universitetlərdə təhsilin müxtəlif pillələri üzrə yaxşı perspektiv vəd edən, dünyanın gələcəyini müəyyən edəcək ixtisaslara yiyələnməkdədirlər. Əlbəttə, deyilə bilər ki, AXC hakimiyyəti illərində də xaricə təhsil almağa göndərilənlər olub. Amma o göndərişin coğrafiyası təkcə bir ölkə ilə yekunlaşırdı, tələbələr həmin ölkənin ümidinə buraxılırdı və gənclər zərurət duyulan peşə və ixtisaslara deyil, AXC hakimiyyətinin ideoloji beyinyuma, azərbaycanlıları "yenidən formatlama" siyasətinə uyğun olaraq əsasən filologiya, tarix, sosial elmlər kimi sahələrə yönləndirilmişdilər. AXC və YAP iqtidarlarının fərqi də bundadır: bizim partiya vətəndaşı dövlət və yaxud hansısa ideologiya üçün vasitə, xammal olaraq görmür. Ümummilli Liderimizdən bizə miras qalan ən mühüm tövsiyə budur - dövlət vətəndaş üçündür. Biz gəncləri, cənab Prezidentin ifadə etdiyi kimi, Azərbaycanın gələcəyi olaraq görürük, onların öz milli dəyərlərimizi, milli ruhumuzu qoruyaraq ən çağdaş elmlərə, çağdaş ixtisas və peşələrə yiyələnməsinə çalışırıq... Bəli, İlham Əliyev dövlətin vəsaiti ilə hansısa şübhəli ideologiyalara xidmət edən, antimilli ruh daşıyıcısı olan yeni nəsil yetişdirməklə məşğul olmur, öz milli mənsubiyyəti və doğma Azərbaycanı ilə fəxr edən gəncliyin formalaşması üçün çalışır.

Bütün bunların nəticəsidir ki, Əli Kərimli xalqımızın xüsusi həssaslıq nümayiş etdirdiyi 20 Yanvar günündə Şəhidlər Xiyabanına ziyarətə gələn, ümumiyyətlə, onun mövcudluğu ilə maraqlanmayan kütlənin qarşısına keçib, öz ətrafında izdiham görüntüsü yaratmağa çalışırdı. Lakin bu cür illüziyalar yaratmaq istəyi son nəticədə elə öz əleyhinə işlədi və cəmi bir neçə gün sonra Məmmədəmin Rəsulzadənin heykəlinin ziyarətinə on minlərin önündə gedəcəyini bəyan etdiyi halda, Novxanıya 120 nəfərlə daxil oldu. Bu isə onun "liderliyini" dırnaq arasına saldı, ciddiyyətdən nə qədər uzaq olduğunu hər kəsə agah etdi. Bu adamların siyasət anlayışı da qeyri-ciddidir, dedi-qodusu da öz səviyyələrindən o tərəfə getmir.

Əli Kərimli müsahibəsində sual edir ki, "hakimiyyətdə olduğu dövrdə İlham Əliyev Azərbaycan xalqı və dövləti üçün nə edib?" Bu suala mən cavab verəcəyəm və həm də Əli Kərimli və ətrafı kimi subyektiv mülahizələrlə ictimai rəyi manipulyasiya etmək üçün deyil, real faktlarla danışacağam.

Müasir dünyada zaman və şərtlər sürətlə dəyişir, Azərbaycan hakimiyyəti məhz dövrün çağırışları, müasirliyin parametrləri, tərəqqinin cazibəsi ilə hərəkət edir. Bugünkü Azərbaycan sosial-iqtisadi baxımdan tam yenilənib. Ötən 15 ildə Azərbaycanın həm paytaxtı, həm də bölgələrimiz müasirləşib, məmləkətimizin dörd bir yanında istehsal və xidmət obyektləri yaradılıb, milyonlarla insan işlə təmin edilib...

2005-ci ilin parlament seçkilərində teledebatlarda çıxış edən o vaxtkı müxalif namizədlərdən biri Azərbaycanın həqiqətən də kiçik olan dövlət büdcəsini Baltikyanı ölkələrdən birinin büdcəsi ilə müqayisə edib, hakimiyyətə gələcəyi təqdirdə, büdcəni 5 milyard manata qədər artıracağını vəd verirdi. İlham Əliyev, əlbəttə belə bir vəd vermədi, amma növbəti seçkilərədək opponentlərinin xəyal etdiyi büdcə göstəricisindən bir neçə dəfə çox büdcə ortaya qoydu. Çünki, o, populist vədlər siyasətçisi deyil, real əməl və amal sahibidir.

***Məqalənin tam mətni ilə baki-xeber.com saytında tanış ola bilərsiniz***




# Mətbuat Şurasında Qətər jurnalisti öz ölkəsinin Ermənistanla əlaqəsinə dair fakt istəmişdi, bu da fakt...

**Xəbər verildiyi kimi, ərəb ölkələrindən olan bir qrup jurnalist fevralın 10-dan 16-dək ölkəmizdə səfərdə olublar. Onlar bir sıra KİV-lərdə görüşlər keçirib, həmçinin ölkəmizin tarixi yerləri ilə tanış olublar.**

Həmin jurnalist heyəti fevralın 15-də Azərbaycan Mətbuat Şurasında da olub. Şuradan bildiriblər ki, əcnəbi jurnalistlərlə keçirilən görüşdə Azərbaycan mediası ilə dünya mediası arasındakı əməkdaşlığın formaları, ölkəmizlə bağlı həqiqətlərin xaricdə təbliği məsələləri, həmçinin söz və ifadə azadlığı müstəvisində nəzərəçarpan meyllər ətrafında müzakirələr aparılıb. Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov qonaqlara rəhbərlik etdiyi qurumun fəaliyyət istiqamətləri, xarici əlaqələri, bu baxımdan ərəb ölkələrinin, ümumilikdə müsəlman dünyasının media qurumları ilə əlaqələri barədə məlumat verib.

Əldə etdiyimiz məlumata görə, həmin görüşdə MŞ İdarə Heyətinin üzvü, "Bakı-Xəbər" qezetinin baş redaktoru Aydın Quliyev ərəb ölkələrini təmsil edən jurnalistlərin diqqətinə, onların təmsilçisi olduğu və digər ərəb ölkələrinin Ermənistanla yaxın münasibətdə maraqlı olduqlarını çatdırıb. Aydın Quliyev hətta ölkə başçısı İlham Əliyevin fikirlərindən sitat da gətirib ki, məscidləri dağıdan bir ölkə İslam dünyasına dost ola bilməz. Həmin vaxt Qətərdən olan jurnalistlər belə bir sualla müraciət ediblər: "Sizdə Qətərin Ermənistanla əlaqə qurmasına dair konkret fakt varmı?"

Onların diqqətinə çatdırılıb ki, belə bir faktlar mövcuddur, zaman-zaman mediada səslənib.

Hətta MŞ İdarə Heyətinin digər üzvü Umud Mirzəyev Qətərdən olan jurnalistlərin diqqətinə çatdırıb ki, Ermənistan bu yaxınlarda onların ölkəsində səfirlik açmağı da planlaşdırır.

Umud Mirzəyev bu istiqamətdə razılığın da əldə olunduğuna dair məlumatı ərəb jurnalistlərin diqqətinə çatdırıb. Qətərli jurnalistlər buna dair də konkret faktın ortaya qoyulmasını istəyiblər.

Qətərli jurnalistlər belə bir faktı görmək istəyirlərsə, erməni KİV-lərini nəzərdən keçirsinlər. Bütün erməni saytları Münhenə etdiyi səfər çərçivəsində Ermənistan prezidenti Armen Sarkisyanla Qətər əmiri arasında olan görüşə dair məlumatları paylaşırlar.

Ermənistan prezidentinin mətbuat xidmətinə istinadən bildirilir ki, ölkə başçıları qarşılıqlı olaraq, bir-birini rəsmi səfərlə ölkələrinə dəvət ediblər. Həmçinin strateji əməkdaşlığın inkişaf etdirilməsinə dair fikir mübadiləsinin aparıldığına dair razılaşma əldə olunub.

**Qətərli jurnalistlərə bundan tutarlı fakt ola bilərmi?**

***Məhəmmədəli QƏRİBLİ***



**Fefralın 17-si axşam saatlarından başlayaraq, tanınmış ssenarist Rüstəm İbrahimbəyovun Bakıda olmasına dair informasiyalar bütün sosial şəbəkələri bürüdü. Əvvəl bu informasiya böyük tərəddüdlə qarşılandı. Sonra isə R.İbrahimbəyovun Bakıdakı restoranlardan birində tanınmış şəxslərlə fotoları paylaşılmağa başladı.**

# Milli Şuradan Rüstəm İbrahimbəyovun Bakıya gəlişinə ilk reaksiya...

## Eldəniz Quliyev: ”Mən orada siyasilərdən kimisə görmədim”



*”Rüstəm İbrahimbəyovun 40 illik dostu kimi həmin məclisə dəvət almışdım”*

Ardınca, fotoda olan şəxslər R.İbrahimbəyovun həqiqətən Bakıda olduğuna dair informasiyaları təsdiqlədilər. Həmin məclisdən paylaşılan fotolarda Yazıçılar Birliyinin sədri Anar, Azərbaycan Rəssamlar İttifaqının sədri Fərhad Xəlilov, professor Qulu Məhərrəmli, kinorejissor Tahir Tahiroviç, şair Baba Vəziroğlu və başqa tanınmış şəxslər də yer alıb.

Xatırladaq ki, Milli Şuranın fəxri sədri R.İbrahimbəyov 2013-cü il prezident seçkilərində iştirak qərarından sonra Azərbaycana qayıtmaqdan imtina etmişdi. Onun barəsində hər hansı cinayət araşdırması olmasa da, İbrahimbəyov həbs təhlükəsini nəzərə alıb, Azərbaycana gəlmədiyini bildirmişdi. Bu səbəbdən də R.İbrahimbəyovun qəfil Bakıda peyda olması çoxlu mülahizələrə yol açmış olub. Bəziləri burada qəribə nəyinsə olmadığını deyib. Digərləri isə İbrahimbəyovun Bakıya dönməsi və ölkənin tanınmış simaları ilə restoranda özünün 80 illik yubileyini qeyd etməsini siyasi hakimiyyətlə anlaşmanın əlaməti kimi yozublar. Ən maraqlısı isə budur ki, Rüstəmbəyovun iştirak etdiyi məclisdə onun fəxri sədri olduğu Milli Şuradan kimsə iştirak etməyib. Ən azı, paylaşılan fotolarda biz bunu görə bilmədik. Sonradan məlum olub ki, R.İbrahimbəyov Bakıya fevralın 15-də gəlib.

Vətənə səfəri 80 illik yubileyi ilə bağlı olan R.İbrahimbəyov fevralın 17-də Azərbaycan kinematoqrafları ilə görüşüb, Kinematoqraflar İttifaqının yığıncağına qatılıb. Verilən xəbərlər sırasında onun siyasətdən birdəfəlik çəkilməsi də var. Bu səbəbdən o, Bakıda eks sədri olduğu Milli Şuranın üzvlərindən heç biri ilə görüşməyib. Yalnız Eldəniz Quliyev istisnadır. Onun da siyasi sima kimi deyil, kinematoqraf həmkar qismində İbrahimbəyovun yanında yer aldığı iddia edilir.

**Bütün bu məsələlərə aydınlıq gətirmək üçün Milli Şuranın yaradıcılarından olan, qurumun Koordinasiya Şurasının üzvü Eldəniz Quliyevlə əlaqə saxladıq.** Eldəniz Quliyev "Bakı-Xəbər"ə açıqlamasında R.İbrahimbəyovun Bakıya gəlişini müsbət hal kimi dəyərləndirdiyini bildirdi: "Mən bunu hakimiyyətin yeni bir açılım siyasətinin əlaməti kimi qəbul edirəm. 80 yaşlı dünya şöhrətli bir adamın ölkəyə qayıtmasında hansı problem ola bilərdi?

Ona heç Milli Şuranın prezidentliyə namizədi kimi təzyiqlər də olmayıb. Rəhbərlik etdiyi Kinematoqraflar İttifaqı ilə bağlı müəyyən anlaşılmazlıqlar vardı.

R.İbrahimbəyov Azərbaycanın Xalq yazıçısı, ABŞ Kino Akademiyasının üzvü və saymaqla qurtarmayacaq dərəcədə titullara malik insandır. O budəfəki gəlişində də daha çox kino sahəsində onunla çalışmış insanları ətrafına yığdı".

"Fotolarda görünməsəniz də, sizin də həmin məclisdə iştirak etdiyinizə dair məlumatlar var, bunların nə dərəcədə doğru saymaq olar", sualına isə E.Quliyev belə cavab verdi: "Bəli, mən həmin tədbirdə iştirak etmişəm. Amma mənim dəvətimdə siyasi çalar axtarmaq düz olmaz. Mən orada siyasilərdən kimisə görmədim. R.İbrahimbəyovun 40 illik dostu kimi həmin məclisə dəvət almışdım. Eyni zamanda, mən SSRİ və Azərbaycan Kino İttifaqının üzvü olmuşam. Həmin məclisin formatına tam uyğun adam sayıla bilərəm".

"Rüstəm İbrahimbəyovun bundan sonra siyasi iddialarla çıxış edib-etməyəcəyi" ilə bağlı suala isə Eldəniz Quliyev belə cavab verdi: "Açığını deyim ki, R.İbrahimbəyov siyasi iddialarla artıq çıxış etmədiyini çoxdan bəyan edib. Hətta Milli Şuraya sədrlik etdiyi vaxtda o deyirdi ki, məcburən, başqa çıxış yolu olmadığı üçün belə bir prosesə qol qoyub.

**Sonra isə çəkilib kənara, öz yaradıcılığı ilə məşğul olub. Mənə elə gəlir ki, baş verənlərin hamısına normal baxmaq lazımdır. Qeyd edim ki, son zamanlar hakimiyyət tərəfindən normal addımların atıldığını müşahidə edirik. Bütün bunları mən bir vətəndaş olaraq müsbət dəyərləndirirəm".**

Artıq R.İbrahimbəyovun dostları sosial şəbəkələrdə onun ölkəni tərk etdiyini yazıblar.

Bütün baş verənlərdən sonra belə bir nəticə çıxara bilərik: R.İbrahimbəyov qayıtsa da, siyasətdən birdəfəlik getdi...

***Məhəmmədəli QƏRİBLİ***

# "Çeçen uğursuzluğundan" sonra Rusiyada Azərbaycan diasporunun yeni milli münaqişələrə çəkilmək ehtimalları...

## *Mirkazım Seyidov: "Biz daha çox Rusiyada yetişən üçüncü nəsil gənclərimizi həmin ölkənin ictimai-siyasi həyatına istiqamətləndirməliyik"*

**Rusiyada azərbaycanlılara qarşı hazırlanan növbəti təxribat fiaskoya uğradı. Söhbət Rusiyada yaşayan azərbaycanlılarla çeçen əsilli vətəndaşları üz-üzə qoymaq cəhdindən gedir. Hər iki millətin sayılıb-seçilən nümayəndələri və rəsmilərinin proseslərə operativ müdaxiləsindən sonra genişmiqyaslı provakasiyanın qarşısı alınmış oldu. Ancaq gəlin etiraf edək ki, məsələ bununla bitmir.**



Çünki Rusiyada çeçenlərdən başqa digər millətlər də yaşayır ki, nə vaxtsa onlarla da azərbaycanlıları üz-üzə qoymaq cəhdləri ola bilər. Hər halda, biz bunları qabaqcadan analiz etməliyik. Bilməliyik ki, bizi Rusiyada hansı millətlərlə bundan sonra təxribata çəkə bilərlər və bunun qarşısını almaq üçün nələri etməliyik?

**Rusiyada fəaliyyət göstərən tanınmış diaspor fəalı Mirkazım Seyidov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu, vacib bir məsələdir:** "Rusya doğrudan da çoxmillətli ölkədir. Son 10 il ərzində xüsusilə də müsəlman əhalinin Rusiyada çoxalması halları müşahidə olunur. Bunun özü Rusiya ictimaiyyəti üçün bir siqnaldır. Milli məsələ Rusiyada çox incə məqamdır. Bu istiqamətdə hər bir qurumun öz siyasəti müəyyənləşib. Azərbaycan diasporunu daha ciddi narahat etməli olan məsələlərdən biri də öz daxilində olan təxribatlarla bağlı olmalıdır. Rusiyada tatarlardan sonra ikinci böyük diaspora biz sahibik. Azərbaycanlılara qarşı daha çox erməni kartından istifadə edə bilərlər. Amma bu məsələ açıq mövzu olduğundan, o qədər də optimal sayılmayacaq. Çeçenlərlə baş tutmayan bu təxribatın davamı dağıstanlılarla ola bilər. Bunu çox real görürəm. Həmçinin, Azərbaycandan olan azsaylı xalqların nümayəndələri ilə bizim aramızı qızışdıra bilərlər. Xüsusilə də talış və ləzgilər arasında belə toxumların səpilməsinə cəhdlər görünür. Bunların baş verməməsi üçün, biz məcburi şəkildə daha sıx birləşməliyik".

Mirkazım Seyidov deyir ki, Rusiyada yaşayan azərbaycanlılar təhlükəni bütün istiqamətlərdən gözləməlidirlər: "Çünki bizim Rusiyadakı diaspor fəaliyyətimizdə ciddi çatışmazlıqlar var. Nə qədər çalışsaq da, biz Rusiyada siyasi gücə çevrilə bilmirik. Bizim elə diaspor rəhbərlərimiz var ki, erməniləri bütün milli bayramlarında təbrik edirlər. Hətta onların tədbirlərində lap yuxarı başda əyləşirlər. Belə fəaliyyəti biz daha çox ölkəmizdə olan azsaylı xalqların nümayəndələrindən görürük. Onları da məqsədli şəkildə belə provakasiyaya çəkirlər. Biz daha çox Rusiyada yetişən üçüncü nəsil gənclərimizi həmin ölkənin ictimai-siyasi həyatına istiqamətləndirməliyik. Biz yaşlı nəsil bir çox detalı nəzərdən qaçırmışıq. Rusiyadakı həmin səhvlərimizi yeni nəsil gənclərimizin təkrarlamasına izn verməməliyik. Bir faktı da diqqətinizə çatdırım ki, Rusiyada kriminal aləmə meyl də güclüdür. Ona görə də belə bir ölkədə istənilən təxribatı törətmək elə də çətin deyil. Biz yaşlı nəsil mənəmmənəmliyimizi yerə qoyub, bütün stavkanı gənclərimizə etməliyik. Onda biz belə təxribatların qarşısını asanlıqla ala biləcəyik. Yetər ki, bizim gənclərimiz də, digər millətlər kimi, Rusiyanın həyatının bütün sahələrində özlərinə yer tapsınlar".

*Məhəmmədəli QƏRİBLİ*

# Çeçen-Azərbaycan münasibətlərində intensiv erməni fitnəkarlığının uzaq və yaxın hədəfləri...

## *Samir Adıgözəlli: "Fürsətdən yararlanıb təxribatın miqyasını daha da genişləndirməyə can atdılar"*

**Moskvada bir qrup çeçenin azərbaycanlılara hücumu nəticəsində baş verən kriminal insident rəsmilərin müdaxiləsi ilə böyümədən sakitləşdi. Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov hadisəyə dərhal reaksiya verdi və bəyan etdi ki, "Azərbaycan hökuməti insidenti adi məişət zəminində baş vermiş kriminal hadisə kimi dəyərləndirir və hesab edir ki, belə hallar Azərbaycan və çeçen xalqları arasında tarixən mövcud olan dostluq və qardaşlıq əlaqələrinə xələl gətirə bilməz".**



*"Rusiyada azərbaycanlı icması tədricən güclənir və bu, Azərbaycanın da mövqelərinin güclənməsi deməkdir"*

Çeçenistan tərəfi də mətbuat və informasiya naziri Cambulat Umarovun şəxsində Əli Həsənovun bəyanatına dəstək verdi və baş verənlərdən təəssüfləndiklərini qeyd etdi.

Hər iki tərəf məişət zəminində baş verən hadisədən kimlərinsə iki xalqın dostluğuna xələl gətirmək üçün istifadə edə biləcəyi təhlükəsini gözəl anlayır. Buna görə də hadisədən dərhal sonra Moskvadakı Azərbaycan və çeçen icmalarının nümayəndələri bir araya gəldilər və problem həll olundu.

Lakin baş verənlərdə əsas məqam kimlərin azərbaycanlılarla çeçenlər arasında toqquşmaların yaşanmasında maraqlı olması sualını önə çıxarır. Təbii ki, hadisə məişət zəminində baş verib və sonda anlaşılmazlıq həllini tapıb. Lakin Prezidentin köməkçisi Əli Həsənovun bəyanatında qeyd etdiyi "Moskvada yaşanmış insidentdən sui-istifadə edərək xalqlarımız arasında düşmənçilik toxumu səpmək istəyən qüvvələr böyük yanlışlığa yol verirlər və öz çirkin niyyətlərinə çatmayacaqlar" fikirləri belə cəhdlərin olduğunu təsdiqləyir. Biz bu istiqamətdə xüsusilə erməni KİV-lərinin və erməni əsilli sosial şəbəkə istifadəçilərinin fəallığını müşahidə etdik. Onların bu cür qızışdırıcı mövqe tutmasında məqsədləri nə ola bilər?

**Dünya Azərbaycanlıları Konqresi icra aparatının rəhbəri Samir Adıgözəllinin məsələyə münasibəti belə oldu:** "Onlar bizimlə, faktiki olaraq, müharibə şəraitində yaşayırlar. Təbii ki, bizim bütün nailiyyətlərimiz onları kədərləndirir, məğlubiyyətlərimiz isə sevindirir. Bu səbəbdən də çeçenlərlə bağlı hadisəni əllərinə keçən mühüm fürsət kimi dəyərləndirməyə başladılar. Fikir verdinizsə, prosesin qızışdırılmasında erməni KİV-ləri və onların sosial şəbəkələrdəki seqmenti xüsusi aktivlik nümayiş etdirirdi. Burada onların bir sıra maraqları olub. Rusiyada azərbaycanlı icması tədricən güclənir və bu, Azərbaycanın da mövqelərinin güclənməsi deməkdir. Bu mənzərə Ermənistanın Rusiyadakı maraqlarına ziddir. Ona görə də fürsətdən yararlanıb təxribatın miqyasını daha da genişləndirməyə can atdılar. Azərbaycanlıların Moskvada digər millətlərlə, o cümlədən çeçenlərlə dostluq münasibətləri də ermənilərin arzulamadığı mənzərədir. Bununla onlar, eyni zamanda, azərbaycanlıları Rusiyanın daxili stabilliyi üçün problemli faktor olaraq qabardırdılar.

Azərbaycanlılarla çeçenlər arasındakı kriminal insidentin böyüməsi və ermənilərin sosial şəbəkələrdə uydurduğu kimi, "qanlı hesablaşmaların" başlanması erməni icmasının azərbaycanlı icmasının qarşısında mövqelərini gücləndirə bilərdi ki, buna da nail ola bilmədilər. Nəzərə alsaq ki, Moskvada çeçen icması erməniləri sevmir və zaman-zaman onlarla qarşıdurma yaşanır, o zaman, başlaya biləcək "qanlı hesablaşmada" çeçenlərin də "qan itirməsi" erməni icmasının işinə yarayardı.

Məhz bu səbəbdən də erməni KİV-ləri bu istiqamətdə xüsusi canfəşanlıq edirdi. Hesab edirəm ki, bu bizim üçün, eyni zamanda, bir test oldu. Bundan sonra bu qəbildən olan təxribatlara cəhdə ermənilərin hansı plan üzrə hərəkət edə biləcəyini də müəyyənləşdirmiş olduq. Bizim diasporumuz belə incə məsələlərdə xüsusilə diqqətli olmalıdır".

*Məhəmmədəli QƏRİBLİ*

**Azərbaycanın daha çox enerji ehtiyatlarına malik olması fonunda Qərb üçün daha böyük əhəmiyyət kəsb edən ölkəyə çevrilməsi artıq dünya miqyasında da xüsusi olaraq vurğulanır. Elə bundan irəli gəlir ki, Qərbdə enerji sahəsində Azərbaycanla əməkdaşlıq etmək istəyən ölkələrin sayı da artır. Rəsmi Bakı isə belə əməkdaşlığa hazır olduğunu bildirir. Xüsusən də təbii qaz shəsində.**

# "Cənub Qaz Dəhlizi" - dünya enerji təhlükəsizliyində mənbə və marşrut şaxələndirilməsi üzrə ilk layihə...

Proseslərin gedişi göstərir ki, Azərbaycan qazını Avropaya çatdıran "Cənub Qaz Dəhlizi" vasitəsilə mavi yanacaq alan ölkələrin sayında əhəmiyyətli artım ola bilər. Bunu energetika naziri Pərviz Şahbazov da təsdiq edir. Onun sözlərinə görə, "Cənub Qaz Dəhlizi" gələcəkdə daha çox Avropa ölkəsini əhatə etmək perspektivinə malikdir. Nazir 7 ölkə və çoxsaylı şirkətlərin iştirakı ilə reallaşdırılan "Cənub Qaz Dəhlizi"nin icrasının yekun mərhələyə daxil olduğunu bildirib və layihənin dünyanın enerji xəritəsini yenidən formalaşdıran strateji əhəmiyyətini diqqətə çatdırıb: "Cənub Qaz Dəhlizi" hazırda dünya enerji təhlükəsizliyi sistemində şaxələnməni mənbə və marşrutun hər biri üzrə təqdim edən ilk real layihədir. Bu layihə enerji təhlükəsizliyi baxımından həssas region sayılan Cənub Şərqi Avropa bazarına istiqamətlənsə də, gələcəkdə daha çox Avropa ölkəsini əhatə etmək perspektivinə malikdir. Bu isə onu göstərir ki, "Cənub Qaz Dəhlizi"nin inkişafı ilə Avropada enerji təhlükəsizliyi daha geniş miqyasda təmin ediləcək".

Elə ABŞ-ın Enerji İnformasiya Administrasiyasının (EIA) yaydığı məqalədə də deyilir ki, Azərbaycan Cənubi Avropa üçün daha əhəmiyyətli təbii qaz tədarükçüsü olmaq niyyətindədir. Yazıda bildirilir ki, Azərbaycan Xəzər dənizi regionunda, xüsusilə Avropa bazarına mühüm xam neft və təbii qaz tədarükçüsü hesab olunur: "Azərbaycanın təbii qaz ixracı ölkə iqtisadiyyatının əhəmiyyətli hissəsinə çevrilməkdədir. Azərbaycanın hasil etdiyi təbii qazın müəyyən hissəsi ixraca yönəldilir. Azərbaycan Avropaya təbii qaz ixracını genişləndirməyi planlaşdırır. Avropa İttifaqına üzv ölkələrin rəhbərləri Azərbaycanın "Şahdəniz" təbii qaz yatağından çıxarılan qazın Cənubi Avropaya nəqlini qitənin təbii qaz tədarükü mənbələrinin şaxələndirilməsi kimi strateji məqsədi istiqamətində atılmış mühüm addım kimi qiymətləndirir. Xüsusilə Cənub və Şərqi Avropada coğrafi, infrastruktur baxımından məhdudiyyətlərin mövcudluğu buradakı ölkələrin təbii qaz təchizatı üçün məhdud seçimlər yaradır".

Bildirilir ki, Azərbaycanın təklif etdiyi qaz həcmləri Cənubi Avropaya daha az təbii qaz gətirsə də, regional tələbatın ödənilməsi üçün alternativ variant təmin etməklə potensial tədarük pozuntularını azaltmağa kömək edə bilər. Məqalədə Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" qaz-kondensat yatağının hasilat gücü, yatağın işlənməsinin ikinci mərhələsi olan "Şahdəniz-2", genişləndirilən Cənubi Qafqaz Boru Kəməri (CQBKG) və TANAP kəməri barədə məlumat verilir:




"Azərbaycan təbii qazının Avropaya nəqlini nəzərdə tutan TAP boru kəmərinin 2020-ci ildə tamamlanması gözlənir. "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan TAP Cənubi Qafqaz Boru Kəməri və TANAP-ın davamı olub, "Şahdəniz-2"dən hasil olunacaq qazı Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya çatdıracaq".

Bütün bunlar bir daha Azərbaycanın Avropanın enerji təminatında yüksək rolunun real ifadəçisi sayılır. Baş verənləri şərh edən Milli Məclisin deputatı Əli Məsimli qeyd edib ki, Avropanın əksər ölkələrinin əsas problemi olan enerji təhlükəsizliyi məsələsi Azərbaycanın da marağındadır: "Amma Azərbaycanın bədxahları da var və onlar ölkəmizin böyük layihələrinə kölgə salmağa çalışırlar. Baltik Assambleyasının iqtisadiyyat, energetika və innovasiya, təbii ehtiyatlar və ətraf mühit məsələləri üzrə komitələrinin Riqada keçirilən birgə iclasında da bu mövzuya toxunuldu. Mən çıxışım zamanı konkret rəqəmlərə, faktlara istinad edərək bildirdim ki, ötən il Azərbaycanda 31 milyard kubmetrədək təbii qaz hasil edilib. "Cənub Qaz Dəhlizi"nin ilkin buraxılış gücünün 16 milyard kubmetr olduğunu nəzərə alsaq, deməli Azərbaycan bu prosesə öz gücü ilə də başlamaq iqtidarındadır. Yaxın illərdə Azərbaycanın qaz hasilatını daha da artırmaq planı var və bu, ölkəmizin "Cənub Qaz Dəhlizi"ni sırf öz təbii qazı ilə təmin edəcəyini deməyə əsas verir. Bununla da ölkəmiz Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayacaq və qitəyə daha güclü inteqrasiya edəcək".

İndilikdə isə proseslərin gedişi enerji sahəsində Azərbaycan-Avropa əməkdaşlığının daha da dərinləşəcəyini göstərir. Bu vəziyyət Azərbaycana böyük iqtisadi dividendlər gətirməklə yanaşı, ölkəmizin Qərb dünyasında mövqelərini daha da möhkəmləndirir.

***Tahir TAĞIYEV***

---

**Nikol Paşinyan baş nazir olanda müxtəlif məsələlərlə bağlı, xüsusən də iqtisadiyyatla əlaqədar populist vədlər verirdi. Paşinyan əvvəlki hakimiyyətin bu sahədə apardığı siyasəti kəskin tənqid edərək vəd edirdi ki, ölkədə iqtisadiyyat daha sürətlə inkişaf edəcək. Daha sonra iqtisadiyyatla əlaqədar bir sıra düşünülməmiş qərarlar qəbul etdi.**

# Ermənistanda araq-konyak biznesi Paşinyanın iqtisadi islahatlarına qarşı qalxdı...

## ***Rəsul Cahangirli:*** *"Ermənistan istehsalı olan şərab məhsulları Rusiya bazarında əvvəlki illərdəki kimi satılmır"*



*"Bununla yanaşı, qanunvericiliyə edilən dəyişikliklər nəticəsində vergi yükünün artması bu sahənin zəifləməsinə təsir göstərir"*

Ancaq görürük ki, bütün bunlar ölkədəki iqtisadi vəziyyəti yaxşılaşmağa doğru yox, pisləşməyə doğru aparır.

Belə ki, iqtisadiyyatı bərbad gündə olan Ermənistanda az-maz üzdə olan sahələrdən biri də şərabçılıqdır. Ancaq erməni mətbuatının yazdığına görə, Paşinyandan sonra qanunvericiliyə edilən bir sıra dəyişikliklərdən sonra Ermənistan brendi sayılan şərab istehsalı təhlükə altına düşüb. Bununla məşğul olan şirkətlər Paşinyana müraciət ediblər. Məsələ ondadır ki, konyak və şərab istehsalı ilə məşğul olan bir çox şirkət artıq yanvarın 1-dən qüvvəyə minən "Dövlət vəzifələri haqqında" Qanuna düzəlişləri ləğv etmək istəyilə Ermənistanın baş nazirinə müraciət edib. Onlar hesab edirlər ki, ötən ilin yayında qəbul edilən və bu il yanvarın 1-dən qüvvəyə minən düzəlişlər şərab istehsalçılarının zərərinədir. Bu sahə ilə məşğul olan sahibkarlar müraciətdə bildiriblər ki, onlar artıq istehsal xərclərinin artmasına, ixracın həcminin azalmasına və beynəlxalq bazarda zəifləməyə səbəb olan qanunvericilik dəyişikliklərinin mənfi təsirlərini hiss edirlər. Belə gedərsə, Ermənistanda iqtisadiyyatın şərabçılıq sahəsi iflasa uğrayacaq.

**Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, Paşinyanın apardığı islahatlar reallığa və ölkənin mövcud imkanlarına adekvat olmadığı üçün, özünü doğrultmur:** "Bu da, öz növbəsində, ölkədə mənfi fəsadlar yaradır. Nəzərə almaq lazımdır ki, Paşinyan baş nazir olandan sonra bir sıra strukturları ləğv etdi, amma yaratdığı alternativ qurumlar işlək deyil və gözləntiləri doğrultmur. Həmçinin, bütün bunların sayəsində ölkədə xeyli sayda işsiz yaranıb. Bu da sosial narazılıqların artmasına və ictimai rəydə Paşinyanın reytinqinin aşağı düşməsinə səbəb olub. Paşinyanın apardığı islahatlar ölkədə sahibkarların vəziyyətini yaxşılaşdırmayıb, əksinə, daha da çətinləşdirib. Xüsusən də bu onların vergi yükünün artmasına, rəqabət imkanlarının zəifləməsinə səbəb olub. Bir məqamı nəzərə almaq lazımdır ki, qanunvericiliyə edilən dəyişikliklər əsasən bu il yanvarın 1-dən qüvvəyə minib. Ermənistanın təbii ehtiyatları məhduddur. Ölkə müəyyən əlvan metal və mərmər ehtiyatlarına malikdir. Paşinyan mövcud reallıqları nəzərə almayaraq, büdcəni vergiləri artırmaqla doldurmaq istəyir. Bu da ölkədəki sahibkarların işini çətinləşdirir. Şərabçılıq Ermənistanda müəyyən qədər inkişaf etsə də, bu sahədə dünyada güclü rəqabət var. Xüsusən də Gürcüstan bu sahədə Ermənistana ciddi rəqibdir. Ermənistandan fərqli olaraq, Gürcüstanda şərabçılıq daha yaxşı inkişaf edib. Ermənistan öz şərab məhsullarını əsasən Rusiyada realizə edirdi. Ancaq son bir neçə ildə Rusiya bazarında şərab məhsulları ilə bağlı təklif artıb və bu da rəqabəti daha da gücləndirib. Bu səbəbdən, Ermənistan istehsalı olan sözügedən məhsullar Rusiya bazarında əvvəlki illərdəki kimi satılmır. Bununla yanaşı, qanunvericiliyə edilən dəyişikliklər nəticəsində vergi yükünün artması bu sahənin Ermənistanda zəifləməsinə təsir göstərir. Ölkədəki sahibkarlar da bundan narahatdırlar".

***Vidadi ORDAHALLI***

**Ermənistanın müdafiə naziri David Tonayan işgüzar səfərlə Birləşmiş Ərəb Əmirliyinə səfər edib. Bu barədə məlumatı Ermənistan müdafiə nazirinin mətbuat katibi Arçrun Ovanisyan verib. O qeyd edib ki, nazir 16-17 fevral tarixlərində təhlükəsizlik üzrə beynəlxalq konfransda iştirak üçün ərəb ölkəsinə səfər edib.**

# Ermənistan Əbu-Dabidə beynəlxalq silah sərgisində - islam ölkələrinin məscid dağıdan dövlətə daha bir qucaq açması...

## *Tahir Abbaslı: "Onlar məscidlərə it bağlamaqdan tutmuş, müsəlman qəbirlərini təhqirə kimi ediblər"*





Bildirilir ki, Ermənistanın müdafiə naziri həm də İDEX-2019 adlı hərbi-sənayə sərgisində iştirak edib və BƏƏ-də əvvəlcədən planlaşdırılan işgüzar görüşlər keçirib.

Maraqlıdır ki, daim islam dininin keşikçisi obrazında özlərini təqdim edən bəzi ərəb ölkələri müsəlmanları əzən, məscidləri dağıdan, islama aid dəyərləri təhqir edən Ermənistanla olduqca sıcaq manasibətlər saxlayırlar. Belə faktlar irad kimi onlara bildiriləndə isə dəlil və sübut tələb edirlər. Ərəb ölkələri ilə Ermənistanın yaxınlığını sübut edən daha bir fakt isə iki gün əvvəl baş verib. Həmin vaxt Münhendə səfərdə olan Ermənistan prezidenti Armen Sarkisyan Qətərin əmiri ilə görüşüb, hətta strateji sahələr üzrə əməkdaşlıq edəcəkləri haqda razılığa gəliblər. Ərəb ölkələrinin Ermənistanla olan belə isti münasibətlərini necə dəyərləndirmək olar?

**İslam Demokrat Partiyasının sədri Tahir Abbaslı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ermənilər ən böyük şeytana qulluq edən millətdir:** "Onlar müsəlmanların da ürəyinə yol tapmağı bacarırlar. Bilirlər ki, islamda fitrə, sədəqəyə böyük önəm verilir. Ona görə də gedib müsəlman ölkələrinin qarşısında əl açırlar. Yəni lazım olanda islam dininin buyurduqlarından da öz məqsədləri üçün yararlana bilirlər. Bizim ölkəmiz də xristianlarla əməkdaşlıq edir. Amma Ermənistanın əlində elə bir ciddi əsas yoxdur ki, buna irad bildirsin. Çünki biz hər hansı bir kilsəni dağıtmamışıq, xristianlığın hər hansı bir dəyərini təhqir etməmişik. Belə olsaydı, ermənilər bu fürsəti buraxmazdılar. Ermənilər isə belə vandalizmlərə yol veriblər.

*"Hər halda, Pakistan kimi nəhəng müsəlman ölkəsindən ibrət götürsələr yaxşı olar"*

Onlar məscidlərə it bağlamaqdan tutmuş, müsəlman qəbirlərini təhqirə kimi ediblər. Müsəlman ölkələri bu məsələdə öz təəssüblərini mütləq ifadə etməlidirlər. Hansı ölkə bunu etmirsə, demək ki, yalançı müsəlmandır. Hər halda, Pakistan kimi nəhəng müsəlman ölkəsindən ibrət götürsələr yaxşı olar. O ölkə bizə olunan haqsızlığa görə Ermənistanla heç bir diplomatik əlaqə qurmayıb".

***Məhəmmədəli QƏRİBLİ***

**Ermənistanda sosial-iqtisadi müstəvidə problemlərin əvvəlki qaydada davam etməsi, bir çox istiqamətlər üzrə daha da dərinləşmsi ölkədə yeni gərgin vəziyyət yaratmaqdadır. Elə bunun nəticəsidir ki, ölkədə keçirilən çoxsaylı etiraz aksiyaları səngimir. Küçə ticarətçiləri, ləğv edilmiş dövlət qurumlarının əməkdaşları, taksi sürücüləri, məhsullarını satmaqda çətinlik çəkən kəndlilər və digərlərinin aksiyalarının davamlı xarakter alması Nikol Paşinyan iqtidarı üçün ciddi problemə çevrilib.**

# Paşinyanın iqtisadi inqilab konsepsiyası ilk başlanğıcında çökdü...

## *Küçə tacirləri, ixtisara düşənlər, taksi sürücüləri, malını sata bilməyən kəndlilər baş nazirə qarşı...*



Belə bir vaxtda Ermənistanın Alaverdi şəhərində yerləşən mis emalı zavodunun 100-dən artıq əməkdaşı tətil elan edib. Aksiya iştirakçıları dövlət əhəmiyyətli dəmir yolunu bağlayaraq, gələcək talelərinin necə olacağı ilə maraqlanırlar. Onlara verilən məlumata görə, martın 1-dən işsiz qalacaqlar. Zavod 4 aydır əməkdaşlarına əməkhaqqı verə bilmir. Səhmdarların yerli banklara külli miqdarda borcu yaranıb. Nəticədə mis emalı müəssisəsinin bağlanmasına qərar verilib. Etirazçılar deyir ki, bundan bir müddət əvvəl Texut mədəninin fəaliyyəti borc səbəbindən dayandırılıb, 500 nəfər işsiz qalıb. Onlar da eyni aqibəti yaşamaq istəmir. Məsələ ilə bağlı parlamentin son iclasında "Çiçəklənən Ermənistan" partiyasından deputat Armen Ayvazyan baş nazirə sual verib. Nikol Paşinyan bunun zavodun daxili problemi olduğunu deyib. Baş nazirin cavabı aksiya iştirakçılarını qane etməyib. Etirazçıların sözlərinə görə, onlar Nikol Paşinyanı ondan ötrü seçiblər ki, ənənəvi problemlər həllini tapsın. Yeni hökumət isə həssas məsələlərə laqeydlik nümayiş etdirir. Ölkədəki xaotik vəziyyətdən istifadə edən Respublika Partiyasının sədr müavini Eduard Şarmazanov yenidən vətəndaşlara çağırış edib: "Hökumət sizi aldadır. İşsizlər ordusu hər ötən gün artır. Bəs hanı verilən vədlərin real nəticəsi? Ermənistan Müdafiə Nazirliyi belə xalqa yalan danışır. Orduda baş verən neqativ hallar gizlədilir. Əsgər öldürülür, açıqlama verilmir. Demək ki, müdafiə naziri Davit Tonoyan öz işinə səhlənkar yanaşır. Mən gənclərə müraciət edərək deyirəm: zor gücünə hakimiyyətə gətirdib kresloda əyləşdirdiyiniz insanlar indi sizi aldatmaqla məşğuldur". Nikol Paşinyan isə Şarmazanovun çağırışına sərt reaksiya verib. Bildirib ki, onun tənqid etdiyi Tanoyan özü də Sarkisyan komandasının üzvü, hətta ötən ilə kimi respublikaçı olub.

Bununla yanaşı o da bəlli olub ki, Nikol Paşinyan erməni cəmiyyətində nüfuzunu artırmaq məqsədilə ötən ilin noyabrında imzaladığı əfv fərmanından da peşman olub. Məsələ ondadır ki, daha çox siyasi məqsəd daşıyan bu addımın nəticəsində paytaxt İrəvan və digər rayonlarda cinayətkarlıq görünməmiş həddə çatıb. 2018-ci ildə və cari ilin ilk aylarında qarət, mənzil oğurluğu və dələduzluq kimi cinayətlərin sayının kəskin artması da Paşinyan üçün problemə çevrilib. Siyasi ekspertlərin fikrincə, erməni xalqı, postinqilabçı Ermənistanın həyata keçirəcəyi yenilikləri gözləmələrinə baxmayaraq, köhnə proseslərlə qarşılaşıb. Ekspertlər bildirib ki, yeni hökumət bir il əvvəl erməni ictimaiyyətinə vəd verdiyi islahatları reallaşdırmayacağı təqdirdə Paşinyan komandasının həyata keçirdiyi "inqilab" məğlub hesab ediləcək. "1in.am" saytı isə yazır ki, bundan istifadə edən Paşinyan əleyhdarları yenidən iqtidara gəlməyə çalışacaq: "Nikol Paşinyan hökumət proqramını parlamentə təqdim edərkən deyib ki, "İdarəçilik sisteminin 90%-i köhnə, 10%-i isə yeni vəzifəli şəxslərdən ibarətdir. Köhnələr öz fəaliyyətlərində nə isə bir yenilik etmək, yenilər isə köhnəni dəyişmək istəyir". Beləliklə, baş nazir həssas və çoxqatlı reallığı praktiki olaraq təsbit edib. Paşinyan faktiki bəyan edib ki, "əksinqilab" idarəçilk sistemində yerləşib və təxribata cəhd etməyə çalışır.

Bu cəhd elə ötən ilin mayından, məsələn, vergilərin lazımi qaydada yığılmaması formasında edilib. Bundan əlavə, Nikol Paşinyan həmçinin bəyan edib ki, parlament seçkilərində Ermənistan Respublika Partiyası məhz məmur-seçicilərin böyük miqdarda cəmləndiyi yerlərdə daha çox səs alıb. Baş nazir, nəinki mahiyyətcə əks-inqilab təhdidini "qüvvədə saxlayıb", həm də bəyan edib ki, o məhz idarəçilik sistemindədir. Bu təsbit bir neçə baxımdan diqqətçəkəndir. Hər şeydən öncə, Nikol Paşinyan, əlbəttə, özü üçün əksinqilab təhdidilə haqq qazandıra biləcək müəyyən hərəkət diapazonu saxlayır. Bu kontekstdə o, faktiki olaraq, güclü Baş nazirlik hakimiyyətini saxlamağı və müəyyən planda hökumətin səlahiyyətlərini yenidən bölüşdürməyi nə üçün vacib hesab etdiyini əsaslandırır və arqumentlər gətirir. Digər tərəfdən, Paşinyan öz bəyanatı ilə idarəetmə sisteminin bu təbəqəsinə və ya 90%-nə bildirib ki, onlar sayıq və ciddi nəzarət altındadırlar və istənilən anda "əksinqilab"la mübarizə hədəfi ola bilərlər. Eyni zamanda, məsələnin incəliyi ondan ibarətdir ki, Nikol Paşinyan vəziyyətin və təhlükələrin qiymətləndirilməsində haqlıdır, kadrların göstərilən nisbəti, ola bilsin, bir neçə faizlik xəta ilə həqiqətən doğrudur və təxribat reallığı faktiki mövcuddur. Burada sual yaranır: bəs ona daha çox kim nəzarət edir? Əmrlər yollayan köhnə sistem, yoxsa bu təbəqələrə baş nazir vasitəsilə xəbərdarlıq edən yeni hökumət? Bəlkə özbaşına hərəkət edən, nəzarət olunmayan və ya, necə deyərlər, "öz-özünə yetərli" olan təxribat komponenti var? Bu halda, köhnə sistemin himayəsindən məhrum olan, eyni zamanda idarəçilik sistemində qalan orta və aşağı səviyyəli məmurlar sadəcə, necə deyərlər, "öz təşəbbüslərilə" üsyana qalxırlar. Böyük ehtimalla, həm bu, həm də o biri hal var. Lakin necə olmasından asılı olmayaraq, heç bir şübhə yoxdur ki, idarəçilik sistemində təxribat və müəyyən əsəb və mövqe mübarizəsi, yeni hökumətin və köhnə sistemin birbaşa və dolayı yolla təsiri var. Burada sual yaranır: nə üçün "təxribatçılar" sistemdən uzaqlaşdırılmır? Yoxsa bunu aydınlaşdırmaq və əsaslandırmaq kifayət qədər mürəkkəbdir və ya "idarəolunan təxribat" baş nazirin əlində olan siyasi xəritədir.

Digər tərəfdən, "agentlərin aşkar edilməsi"nin müəyyən bir prinsipi də var. Bu prinsipə əsasən, onların əks tərəfə qarşı istifadə edilməsi nəzərdə tutulur. Bu halda onlardan köhnə sistemin, necə deyərlər, "qərargahı"na çıxmaq üçün istifadə oluna bilər. Ancaq nəticədə dövlət idarəçilik sistemində bütün bunlar - taktiki xarakterli mövqe mübarizəsi baş verir. Lakin aydın deyil ki, bu mübarizə hansı dairədə, hansı intensivliklə gedir, idarəçiliyin effektivliyinə necə təsir edir. Əlbəttə, qaçılmaz, xüsusən də fəlakətli reallıq yoxdur, ancaq idarəçilik sisteminin bu "ikili" reallığı nə qədər davam edəcək? ". Bu yazıdan aydın görünür ki, Paşinyanın özünün istənilən vaxt yeni inqilab qurbanı olması istisna deyil və burada hakimiyyətdə yer alan məmurların rolu da yüksək ola bilər. Özü də o, təkcə Serj Sarkisyanın sədri olduğu Respublika Partiyası ilə yox, həm də "Daşnaksütyun"la ciddi ziddiyyətdir. Partiyanın xüsusi komissiyasının əlaqələndiricisi və sabiq iqtisadi inkişaf naziri Artsvik Minasyan keçirdiyi mətbuat konfransında yeni hökumətin apardığı daxili və xarici siyasəti sərt tənqid edib. "Daşnaksütyun" bəyan edib ki, Paşinyanın texnologiyaların inkişafı ilə bağlı proqramı quru şüardan başqa bir şey deyil və Ermənistanda işsizliyi daha da artıracaq: "Paşinyanın "iqtisadi inqilab" proqramının heç bir real əsası yoxdur. Hətta ehtimal olunan 5 faizlik iqtisadi artım belə bu planı həyata keçirmək üçün kifayət deyil. Proqramın parlamentdəki dar çərçivədə hazırlanması da ciddi şübhələr yaradır. Halbuki, ölkənin iqtisadi həyatında bütün siyasi qüvvələrin rəyi nəzərə alınmalıdır".

Nikol Paşinyan isə Serj Sarkisyanın həm "Daşnaksütyun", həm də mətbuat vasitəsilə ona mesajlar göndərdiyini açıqlayıb: "Guya yeni hökumət büdcəni formalaşdıra bilmir. Sarkisyan bununla demək istəyir ki, biz vergiləri yığmaqda acizlik nümayiş etdiririk. Nazirlik və komitələrdə çalışanların 90 faizi sənin öz adamlarındır, deməli səriştəsiz olan sənsən".

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

## Azərbaycan "Su-30"dan güclü qırıcılar almağa hazırlaşır



# "Su-30" qırıcıları da Azərbaycan üzərində Ermənistana hərbi üstünlük təmin edə bilməyəcək...

**Azərbaycanın hərbi müstəvidə işğalçı Ermənistanla kifayət qədər böyük üstünlüyə malik olması heç kimə sirr deyil və bu fakt, erməni ictimaiyyəti də daxil olmaqla, bütün dünya tərəfindən açıq etiraf olunur. Digər tərəfdən daha bir reallıq ondan ibarətdir ki, Ermənistanın, başqa müstəvilərlə yanaşı. hərbi sahədə də Azərbaycanla paritet yaratması mümkün deyil.**

Əksinə, iki ölkə arasında inkişaf fərqi Azərbaycanın düşmən üzərində əzici üstünlüyünü daha böyük sürətlə artırır.

Belə bir vaxtda Ermənistanın Rusiyadan almağa hazırlaşdığı Su-30 SM qırıcı təyyarəsi ətrafında yaratmağa çalışdığı hay-küy də əbəs sayılır. Hətta erməni mediası və ekspertləri belə bu halda Ermənistanın Azərbaycan qarşısında hansısa üstünlük əldə edə bilməyəcəyini vurğulayır. Qeyd edək ki, "IDEX-2019" beynəlxalq müdafiə sərgisində iştirak edən Ermənistanın müdafiə naziri David Tonoyan ölkəsinin 2019-cu ilin sonu, 2020-ci ilin əvvəllərində Rusiyadan 4 ədəd çoxməqsədli Su-30 SM qırıcı təyyarəsi almağı planlaşdırdığını bildirib. Ümumilikdə isə, İrəvan 12 ədəd "Su-30 SM" qırıcısı almaq niyyətindədir: "Biz Su-30 SM qırıcılarının növbəti partiyasının tədarükü üzrə danışıqları davam etdiririk. Hər şey bu məhsulun nə qədər tez hazırlanmasından asılı olacaq, çünki idxal əvəzlənməsi və digər məsələlər var. Qırıcıların ilk partiyasını bu il, yaxud uzağı gələn ilin əvvəlində əldə edəcəyik". Tonoyan onu da bildirib ki, qırıcılar Rusiyanın ayırdığı kredit hesabına alınır.

Amma yuxarıda qeyd olunduğu kimi, bu təyyarələrin alınması belə Ermənistana Azərbaycan qarşısında hansısa üstünlük qazandırmır. Çünki Azərbaycanın Su-30 SM qırıcıları ilə müqayisədə elə Rusiyanın özündən yeni və daha müasir döyüş təyyarələri almağa hazırlaşması barədə məlumatlar gəzir.

Ümumiyyətlə, Bakı Rusiyadan yeni döyüş texnikası almaq niyyətində olduğunu gizlətmir. Bunu bu günlərdə müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkəmizdə fəaliyyət müddəti başa çatan Rusiya Federasiyası Silahlı Qüvvələrinin hərbi attaşesi polkovnik İqor Lobastov ilə görüşündə də təsdiq edib. Həmin görüşdə ölkələrimiz arasında hərbi, hərbi texniki, hərbi təhsil sahələrində əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə olunub, Dağlıq Qarabağ münaqişəsinin həllinin regionda təhlükəsizliyin təmin edilməsi üçün vacibliyi, ikitərəfli əlaqələrin inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Bundan əlavə, görüşdə Rusiya istehsalı olan müasir, yüksək dəqiqlikli döyüş texnikası, silah və digər hərbi təyinatlı vasitələrin ordumuzun silahlanmasına daxil edilməsi, bu sahədə fəaliyyətlərin hər iki dövlətin qarşılıqlı anlaşma və razılığı əsasında daha da genişləndirilməsi və davamlılığı məsələləri müzakirə olunub. Məhz bundan sonra bəlli olub ki, Azərbaycan Rusiyadan yeni döyüş texnikaları almağa hazıraşır və bu sıraya yeni döyüş təyyarələri də daxildir. Artıq bu məsələ erməni hərbi dairələrində də geniş müzakirə edilir.

Erməni hərbi ekspert Vaan Ambartsumyan qeyd edir ki, Bakı Rusiyadan çoxməqsədli Su-30MKA qırıcılarını almağa hazırlaşır. Onun iddiasına görə, Azərbaycan bu məqsədlə öz pilotlarını Əlcəzair Hərbi Hava Qüvvələrinin Rusiyadan alınan Su-30MKA qırıcılarında təlim keçməyə göndərib. Ambartsumyan vurğulayıb ki, həmin qırıcılar Rusiyanın Ermənistana verməyə hazırlaşdığı Su-30SM qırıcılarından döyüş və taktiki göstəricilərinə görə daha üstündür: "Digər tərəfdən problem ondadır ki, pilotların hazırlanmasına ən azı 5 il vaxt lazımdır. İndiki məqamda bizim pilotlar həmin Su-30SM təyyarələrində uçmağa hazır deyillər, onlar indiyədək səsdən aşağı sürətlə uçan Su-25 təyyarələrində uçublar". Bu açıqlamadan aydın görünür ki, Bakının almağa hazırlaşdığı Su-30MKA qırıcıları Azərbaycanın düşmən üzərində hərbi üstünlüyünü daha da artıracaq.

Bundan başqa, Azərbaycanın Rusiyadan Su-35 qırıcıları alması da istisna deyil. Ermənilərin narahatlığına yol açan daha bir məqam ölkəmizin NATO qırıcıları almasıdır. Söhbət İtaliyanın "Leonardo Aircraft" şirkətindən sifariş edilən M-346 "Master" təlim-məşq təyyarələrindən gedir. Bu təyyarələr ilk dəfə 2017-ci ildə Müdafiə Nazirliyi tərəfindən nümayiş etdirilib. Sonradan məlum olub ki, Azərbaycan 10 belə təyyarə alıb, daha 15-ni sifariş verib. M-346 yüngül təlim-məşq təyyarələri asanlıqla döyüş təyyarələri kimi modifikasiya oluna, onun asqılarında kaset tipli aviabombalar, yaxud qanadlı raketlər və idarəolunmayan bombalar quraşdırıla bilər. Ermənilər üçün əsas narahatlıq isə həmin təyyarələrə ölkəmizin Türkiyədən aldığı supermüasir "SOM-B1" qanadlı raketlərinin yüklənə biləcəyidir. Van Ambartsumyan da vurğulayır ki, həmin raketlər nəinki hava və raket hücumlarından müdafiə sistemlərini dəf etmək üçündür, eyni zamanda həmin sistemlərin özlərini məhv edə bilər və Ermənistanın bu raketlərə qarşı müdafiə imkanları yoxdur: "Yəni Ermənistan Silahlı Qüvvələrinin silahlanmasında yer alan S-300 PS və S-300 PT zenit-raket sistemləri bu raketlər üçün adi hədəfdir. Bu qanadlı raketlər 250 kilometr radiusa malikdir, üstəlik minimal uçuş hündürlüyü cəmi 10 metrdir. S-300 PS və S-300 PT zenit-raket sistemlərinin aerodinamik hədəfləri vurmaq üçün minimal hündürlüyü isə 25 metrdir. Həmin qurğular maksimum 75 kilometr uzaqlıqda və 27 kilometr hündürlükdə hədəfləri vura bilər". Erməni hərbi ekspert əlavə edib ki, həmin yeni Türkiyə raketlərinin uçuş zamanı relyefə uyğun manevr etmək imkanları var. Ermənistan isə dağlıq ölkə olduğu üçün həmin amil HHM sistemləri üçün hədəfləri ayırd etməyi xeyli çətinləşdirəcək: "Dağların fonunda hədəfləri ayırd etmək xeyli mürəkkəbdir. Erməni ordusunun sərəncamında olan Buk-M2 zenit-raket kompleksləri də bu tipli raketləri vurmaq imkanında deyil".

Ambartsumyan diqqəti bu məqama yönəldib ki, Türkiyədə istehsal olunan silahlar NATO standartlarına cavab verməlidir: "Məhz bu xüsusat Bakının İtaliyadan "Alenia Aermacchi M-346 Master" təlim-məşq təyyarələrinin iri partiyasını almasına səbəb olub. Həmin təyyarələr NATO standartlarına uyğundur və təlim-məşq təyyarələri kimi hazırlansa da, tamamilə döyüş məqsədi üçün də istifadə oluna bilər. Çünki təyyarələr hava-yer tipli raketlər, kaset aviabombaları daşıya bilər. Döyüş yükü 500 kiloqramdır. Həmin təyyarələr "SOM-B1" raketlərini də daşımaq imkanındadır. Bu təyyarələr təlim-məşq təyinatlı olsa da, Bakı əvvəlcə 10 M-346 "Master" təyyarəsi almağa qərar verib, daha sonra 15-ni də sifariş verib və gələcəkdə daha 10 ədəd almağa hazırlaşır. Bu da Azərbaycanın əsl hədəfini və məqsədini ortaya qoyur. Çünki pilotlara təlim vermək üçün birdən-birə 10 təyyarə almaq heç nə ilə əsaslandırılmayan israfçılıq olardı. Deməli, Bakı bu maşınları döyüş vəzifələrinin yerinə yetirilməsi üçün alıb".

Digər tərəfdən, Ermənistandan fərqli olaraq, Azərbaycan çoxsaylı müasir pilotsuz təyyarəyə də malikdir. Bu günlərdə isə bəlli olub ki, Azərbaycan İsrail şirkətinin istehsalı olan "Orbiter 1K" pilotsuz təyyarəsini yenidən almaq istəyir. Bundan başqa, Azərbaycan İsraildən "SkyStriker" zərbə PUA-sı da alıb. Bu silah İsrail hərbi sənaye kompleksinin PUA istehsalı üzrə ixtisaslaşmış dünyaca məşhur şirkəti olan "Elbit Systems" müdafiə sənaye şirkəti tərəfindən istehsal edilir. Onun da ilk xarici müştərisi Azərbaycandır. Bununla yanaşı, Azərbaycan Hərbi Hava Qüvvələrinin inventarında İsrail istehsalı olan "Orbiter-2M" və "Aerostar" tipli pilotsuz uçuş aparatlarına rast gəlmək olar. 2011-ci ildə ölkəmizlə İsrail şirkətinin birgə qurduğu "AZAD sistemlər" müəssisəsi fəaliyyətə başlayıb. Bu müəssisədə "Orbiter-2" pilotsuz uçuş aparatlarının istehsalı həyata keçirilir. İndinin özündə ordumuzda istifadə edilən "Heron" və "Hermes" tipli pilotsuz uçuş aparatları da İsrail istehsalıdır. Digər tərəfdən, Azərbaycan uzun müddətdir ki, hərbi-siyasi sahədə İsrail dövləti ilə əməkdaşlıq edir və bu əməkdaşlıq nətiəcəsində Təl-Əvivdən təkcə PUA-lar yox, digər döyüş texnikaları da alınıb. Erməni tərəfinin bu xüsusda narazılığına baxmayaraq, İsrail ölkəmizlə əməkdaşlığını davam etdirir. Eyni sözləri elə Rusiya barədə də demək olar. Yeri gəlmişkən qeyd edək ki, ölkəmiz Rusiyadan təkcə aviasiya texnikaları almır. Yaxın tezlikdə Rusiyadan yeni döyüş tanklarının da alınması gözlənir. Belə ki, Rusiyanın "Uralvaqonzavod" elm-istehsalat korporasiyası rus ordusunun əsas döyüş tankı T-90S-in yeni ixrac versiyası olan T-90MS tankının sınaqlarını başa çatdırıb. Əsas göstəricilərinə, yəni müdafiəsinə, atəş gücünə və hərəkətliliyinə görə T-90MS tanklarının analoqu yoxdur. Tank 3-cü nəsil yeni dinamik müdafiə sistemi ilə təchiz edilib və bu sistem texnikanı müasir tank əleyhinə vasitələrin hücumundan qoruyur.

Tankın ekipajı üçün komfort şərait yaradılıb, içəridə mikroiqlimi dəstəkləyən kondisioner sistemi işləyir. Bütün təchizatı ilə tankın kütləsi 50 tonu keçmir. Bu da ona rəqibləri qarşısında mühüm üstünlük təmin edir. 125 millimetrlik topla təchiz edilən tank müxtəlif tipli döyüş sursatları, o cümlədən məsafədən partlatmaq üçün proqramlaşdırılmış başlıqlı mərmilər istifadə edir. Bu da onu yüksək dəqiqlikli silaha çevirir.

Azərbaycan T-90 tanklarının bundan əvvəlki ixrac variantı olan T-90S tanklarının iri partiyasını alıb. Bir neçə il əvvəl "Uralvaqonzavod" Azərbaycana azı 100 belə tank satıb. Məlumatlara görə, Azərbaycan Rusiyadan daha 100 ədəd T-90 tankı almaq üçün müqavilə bağlayıb. Özü də bu tanklardan erməni orudusunda yoxdur. İndi gözlənir ki, Bakı yaxın tezlikdə T-90MS tanklarını əldə edəcək. Alınan bu və digər silahlar isə ordumuzun düşmən üzərində üstünlüyünü birmənalı şəkildə artırır. Onu da qeyd edək ki, Azərbaycan ordusunun ixtiyarında olan ən müasir silahlar Ermənistanda kifayət qədər böyük qorxu yaradır. Düşmən ölkə məhz bu səbəbdən hər vəchlə Dağlıq Qarabağ münaqişəsinin yenidən başlana biləcəyindən böyük narahatlıq keçirdiyini gizlətmir. Çünki yeni savaşda erməni tərəfinin böyük itkilərə məruz qalacağı birmənalıdır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Mikayıl Cabbarovun sahibkarlara qəti sözü - "bulanıq suda balıq tutmaq zamanı keçdi"

*"Ya vergi yükünü artırmalı, ya da kölgəyə çəkilmiş biznesmenləri üzə çıxarmalı idik"*

**Vergilər Nazirliyinin təşkilatçılığı ilə "Vergilər. Şəffaflıq. İnkişaf" mövzusunda forum keçirilib. Forumda çıxış edən vergilər naziri Mikayıl Cabbarov vergi sistemində aparılan islahatlar, həyata keçirilən vergi siyasətinin əsas istiqamətləri, vergi qanunvericiliyində edilmiş dəyişikliklər, dövlət-biznes münasibətləri, ölkəmizin vergi sisteminin perspektiv inkişaf istiqamətləri barədə işgüzar dairələrlə fikir mübadiləsinin aparılmasının vacibliyini vurğulayıb.**

Tədbirdə Azərbaycan Respublikası Prezidenti Administrasiyası, Milli Məclis, dövlət qurumları, beynəlxalq təşkilatlar, ictimai birliklər, qeyri-hökumət təşkilatlarının nümayəndələri və iş adamları iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan vergilər naziri Mikayıl Cabbarov çıxış edərək bildirib ki, uçot sisteminin gizlədilməsi bazarın qeyri-sabitliyinə, neqativ hallara münbit şərait yaradırdı: "Bu problemin həlli istiqamətində ciddi irəliləyiş əldə edilsə də, biz səylərimizi davam etdirəcəyik. Ötən illərdə uçot sisteminin bərpası üçün sahibkarlara vaxt verilib. Bununla bağlı bir sıra sahibkarlara qarşı vergi qanunvericiliyi çərçivəsində mübarizə aparılıb. Artıq hamı anladı ki, bulanıq suda balıq tutmaq zamanı bitib. Yeni vergi yanaşması haqsız rəqabətin qarşısını alacaq. Vergi sistemində islahatların aparılması zamanı Vergilər Nazirliyinin qarşısında iki mühüm ssenari var idi. Birincisi, vergi yükünün artırılması yolu ilə gedərək daxilolmaları artırmaq, ikincisi isə vergi yükünü azaltmaqla kölgəyə çəkilmiş bütün biznes strukturlarını, vergi ödəyicilərini geniş və bərabərhüquqlu vergi ödəməyə cəlb etmək idi. Azərbaycan hökuməti ikinci yolu seçdi".

M.Cabbarov bildirib ki, ötən il iri topdansatış müəssisələrində aparılan vergi nəzarəti zamanı 930 milyon manatlıq dövriyyənin gizlədildiyi aşkar edilib: "2019-cu il üzrə vergi xidmətinin əsas prioritetləri dəyişməz olaraq qalır. Bu, ilk növbədə, kölgə iqtisadiyyatının aradan qaldırılması istiqamətində görülən işlərdir. Vergi orqanlarının keçən il iri topdansatış müəssisələrində apardığı vergi nəzarəti tədbirləri zamanı 930 milyon manat, şəbəkə marketləri üzrə 122 milyon manat, özəl tibb xidmətləri sahəsində 230 milyon manatdan çox dövriyyənin gizlədildiyi aşkar olunub. Bu, milyonlarla manat verginin və sosial ödəmələrin büdcədən yayındırılması deməkdir".

Vergilər nazirinin sözlərinə görə, Azərbaycanda Vergi Ombudsmanı institutunun yaradılması vergi sistemində şəffaflığı artıracaq: "Ölkəmizdə Vergi Ombudsmanı institutunun yaradılması sahibkarların şikayətlərinə baxılması, onların hüquqlarının qorunması istiqamətində atılmış mühüm addımdır. Bu həm də vergi sistemində şəffaflığın artmasına və vergi ödəyiciləri ilə vergi işçiləri arasında qarşılıqlı etimadın yüksəlməsinə təkan verəcək".

M.Cabbarov onu da qeyd edib ki, uzun illər iqtisadiyyatın ayrı-ayrı sektorlarında mövcud olmuş "kölgə iqtisadiyyatı" qanuni əsaslarla işləyən sahibkarların əl-qolunu bağlamışdı: "Elə bir vəziyyətlə üz-üzə idik ki, praktiki olaraq, intizamla işləmək istəyən şirkətlər bazar paylarını itirməyə məhkum idilər. Uçot sisteminin iflic olması, nəticə etibarilə, vergi potensialının gizlədilməsinə, bazarın qeyri-sabitliyinə şərait yaradırdı. "Kölgə iqtisadiyyatı" müxtəlif növ mənfi amillərin yaranmasına kömək edir. Bu problemin həllində ciddi irəliləyiş əldə edilsə də, biz bu istiqamətdə səylərimizi davam etdirməliyik. Bu səbəbdən, 2018-ci ildə "kölgə iqtisadiyyatı"nın miqyaslarının azaldılması vergi xidməti üçün başlıca istiqamət oldu. Uçot sisteminin bərpası üçün sahibkarlara vaxt verildi, geniş maarifləndirmə işləri aparıldı. Bəzi sektorlarda, xüsusilə aksizli malların istehsalı və satışı, tibbi xidmət sektoru, ticarət obyektləri şəbəkəsi kimi sahələrə nəzarət artırıldı. Uçot sisteminin bərpa edilməsi ilə bağlı tələblərimiz müəyyən müqavimətlə, bəzi hallarda narazılıqla qarşılandı. Kimsə bunu kampaniya xarakterli saydı, kimsə gözləməyə üstünlük verdi. Lakin düşünürəm ki, nəticə etibarilə, qəbul edildi. Çünki hər kəs başa düşür ki, gec-tez qanunlar çərçivəsində işləməkdən daha faydalı yol yoxdur. Bulanıq suda balıq tutmaq zamanı bitib".

Vergilər naziri biznes münasibətlərinin şəffaflaşdırılması məsələsinə də toxunub. O qeyd edib ki, ötən ilin yekunu üzrə iri topdansatış müəssisələrində 930 milyon manat, şəbəkə sistemli marketlərdə 122 milyon manat, özəl tibb müəssisələrində isə 230 milyon manatdan artıq dövriyyələrin gizlədilməsi faktları aşkarlanıb: "Bizim ilk funksiyamız bütün faktları aşkara çıxarmaq və müəssisələri vergiyə cəlb etməkdən ibarətdir".






İqtisadiyyat naziri Şahin Mustafayev qeyd edib ki, 2016-cı ildən indiyədək Azərbaycanda ümumi dəyəri 3 milyard manat olan 345 layihə investisiyaların təşviqi sənədi alıb. Bu layihələr 22 min yeni iş yerinin açılmasına xidmət edəcək.

Onun sözlərinə görə, investisiyaların təşviqi mexanizmi ölkənin qeyri-neft sektoruna özəl investisiyaların ciddi şəkildə artmasına yol açıb: "Həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində 2018-ci il ümumdaxili məhsulda özəl sektorun payı 84 faizə, məşğulluq sektorunda isə 76 faizə çatıb. 2015-ci ildən etibarən reallaşdırılan özəl sektorun inkişafı ilə bağlı yeni qərarlar dayanıqlı inkişaf baxımından strateji xarakter daşıyır və sahibkarlığın inkişafının yeni dövrünü xarakterizə edir. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, 2021-ci ilədək sahibkarlıq sahəsində yoxlamalar dayandırılıb, lisenziyalaşdırılan sahibkarlıq sahələrinin sayı azaldılıb, prosedurlar sadələşdirilib. Bundan başqa, vergi, gömrük və sosial sistemlərdə islahatlar başlayıb".

Azərbaycanın əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev çıxış edərək vurğulayıb ki, yaxın günlərdə Azərbaycanda ilk "DOST" (Dayanıqlı və Operativ Sosial Təminat) mərkəzi açılacaq: "Mərkəzdə "bir pəncərə" prinsipi ilə əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində 124 xidmət göstəriləcək. Perspektivdə ölkədə 31 "DOST" mərkəzinin açılışı nəzərdə tutulur".

"Vergilər. Şəffaflıq. İnkişaf" forumunda iştirak edən Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev çıxış edərək bildirib ki, 2019-cu il fevralın 1-dən Azərbaycanda "Yaşıl dəhliz" sisteminə yüzdən çox şirkət qoşulub. İlin sonunadək bu sistemə bütün ixracatçı şirkətlər və 40 faiz idxalatçı şirkətlər qatılmalıdır.

S.Mehdiyevin dediyinə görə, "Yaşıl dəhliz"in tətbiq olunması Azərbaycanda biznesin inkişafı üçün qəbul edilmiş ən vacib tədbirlərdən biri və dövlətin sahibkarlığa qayğısının bariz nümunəsidir.

"Onu da bildirim ki, idxal-ixracla bağlı ciddi müzakirələr aparmaqla vergi və gömrük orqanlarının inteqrasiyasına nail olmuşuq. Uçot sistemini qurmaqla kölgə iqtisadiyyatına böyük zərbə vurulub. 9-a yaxın dövlətlə ticarət şəbəkəsini onlayna qoşa bilmişik. Bunun nəticəsində heç bir sənəd gəlmədən bütün ixrac əməliyyatlarını görə bilirik. Bu da sürətli ticarətin, şəffaflığın təmin olunmasına şərait yaradır. Bütün bunlar uçotun qurulmasına, sürətli elektron idarəedilməyə gətirib çıxarır".

S.Mehdiyev onu da əlavə edib ki, bu ayın 1-dən qısa vergi bəyannamələrinin tətbiqinə başlanıb: "Son illərdə atılan uğurlu addımlardan sonra sahibkarlar da əmin olmalıdırlar ki, cənab Prezidentin dövlət qurumları qarşısında qoyduğu əsas tələblərdən biri budur ki, sahibkarların yanına olmalıyıq, bir qurumun islahatı digər qurumun islahatının əksinə olmamalıdır".

"Vergilər. Şəffaflıq. İnkişaf" mövzusunda keçirilən forumda iştirak edən millət vəkili Vahid Əhmədov qeyd edib ki, vergilərin ödənilməsi mühasibat uçotunun düzgün aparılmasından asılıdır. Bu gün Azərbaycanda mühasibat uçotu düzgün qurulmayıb: "Mühasibat uçotu haqqında" Qanuna dəyişiklik olsa da, ölkə üzrə mühasibat uçotu normal səviyyədə aparılmır. Mühasibat uçotunun düzgün qurulması vergi yığımına təsir edən amillərdəndir. ƏDV-nin differensiallaşdırılması ilə bağlı ciddi addımlar atılmayıb. Buna böyük ehtiyac var. İstərdim ki, ƏDV-nin differensiallaşdırılması ilə əlaqədar məsələyə baxılsın və təkliflər verilsin. Yeni Vergi Məcəlləsinin yaradılmasına ehtiyac var. Çünki Vergilər Məcəlləsində lüzumsuz və bir-birini təkzib edən maddələr var".

Forum müzakirələrlə davam edib.

***Günel CƏLİLOVA***

# Tək bir ildə 3,8 milyard manatlıq sənaye istehsalı - Bir ildə rəqəm neçə dəfə böyüyəcək...

## *Aydın Hüseynov: "Ötən ay sənaye istehsalında qeydə alınan artım onu göstərir ki, çox yaxın gələcəkdə Azərbaycan böyük bir sənaye dövlətinə çevriləcək"*

**Azərbaycanda sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2019-cu ilin yanvar ayında 3,8 milyard manatlıq və ya 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,4 faiz çox sənaye məhsulu istehsal edilib. Təkcə sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 13,8 faiz artıb.**



*"Azərbaycan daxili bazarı təmin etməklə yanaşı, rəqabətqabiliyyətli, ixracyönümlü sənaye məhsullarını dünya bazarına çıxaracaq"*

Bununla belə, sənaye məhsulunun 72,5 faizi mədənçıxarma sektorunda, 22,0 faizi emal sektorunda, 4,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,7 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunub.

Mədənçıxarma sektorunda neft hasilatı 0,8 faiz azalıb, əmtəəlik qaz hasilatı isə 26,4 faiz artıb.

Emal sektorunda avtomobil, qoşqu və yarımqoşquların istehsalı 2,9 dəfə, mebel istehsalı 2,3 dəfə, maşın və avadanlıqların istehsalı 2,1 dəfə, kağız və karton istehsalı 75,2 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 63,3 faiz, ağacın emalı və ağacdan məmulatların istehsalı 58,7 faiz, toxuculuq sənayesi məhsullarının istehsalı 56,9 faiz, içkilərin istehsalı 48,9 faiz, kompyuter, elektron və optik məhsulların istehsalı 37,1 faiz, kimya sənayesi məhsullarının istehsalı 35,4 faiz artıb. O cümlədən, ölkənin digər sənaye sahələrində də artım qeydə alınıb.

Bütün bunlar onu göstərir ki, son 3 ildə aparılan sistemli islahatlar, qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün qəbul olunan proqramlar Azərbaycanda sənayenin inkişafına ciddi təkan verir. Hər bir ölkənin iqtisadi inkişaf göstəricisini müəyyən edən başlıca faktor həmin ölkənin sənaye sektorunun nə dərəcədə inkişaf etməsidir. Təsadüfi deyil ki, bir sıra inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr sənaye sektorunun inkişafına xüsusi önəm verirlər. Bu baxımdan, Azərbaycanda bir ay ərzində 3,8 milyard manatlıq sənaye məhsulu istehsal olunmasının əhəmiyyətini ekspertlər necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən millət vəkili Aydın Hüseynovun sözlərinə görə, sənaye sahəsində qeydə alınan ciddi artım bu sahənin ikişaf etdirilməsinin prioritet əhəmiyyət kəsb etdiyini göstərir:** "Biz görürük ki, aparılan islahatlar, görülən işlər sayəsində bu ilin yanvar ayında sənaye istehsalı kifayət qədər artıb. Belə ki, bir ay ərzində 3,8 milyard manatlıq sənaye məhsulunun istehsal olunması kifayət qədər böyük rəqəmdir. Sənayenin qeyri-neft sektorunda 14 faizə yaxın artım olub. Bu onu göstərir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi siyasətin ən başlıca istiqamətlərindən biri də sənayenin inkişaf etdirilməsi və ölkə iqtisadiyyatının neftdən asılılığını azaltmaqdır. Bu istiqamətdə kompleks işlər görülür. Ümumilikdə götürdükdə, sənaye və sənayenin qeyri-neft sektorunda önəmli nailiyyətlər əldə olunub. Ötən ay sənaye istehsalında qeydə alınan artım onu göstərir ki, çox yaxın gələcəkdə Azərbaycan böyük bir sənaye dövlətinə çevriləcək. Azərbaycan sənaye məhsulları ilə daxili bazarı təmin etməklə yanaşı, rəqabətqabiliyyətli, ixracyönümlü sənaye məhsullarını dünya bazarına çıxaracaq.

Bunun üçün çox böyük işlər həyata keçirilir. İri şəhərlərdə və regionlarda sənaye parkları, sənaye məhəllələri salınır. Başlıca məqsəd həm də ölkə vətəndaşlarını dayanıqlı daimi iş yerləri ilə təmin etməkdir. Çünki sənaye sektorunda çalışan işçilərin əmək vərdişləri və peşələri yüksək olduğu üçün, orada əməkhaqları da yüksək olur. Bu isə, ümumilikdə, vətəndaşların sosial rifah halının daha da yaxşılaşmasına xidmət edir".

***Vidadi ORDAHALLI***

# Azərbaycan özəl mebel sənayesinin rəqabət qabiliyyətsizliyi getdikcə daha da dərinləşir...

## *Vüqar Bayramov: "Xaricdən mebel idxalının azalması üçün yerli istehsala aid olan mebellərə inam artmalıdır"*

**Prezident İlham Əliyevin prioritet elan etdiyi sahələrdən biri də mebel istehsalıdır. Ölkə başçısı hətta 2016-cı ilin yanvarında nazirlərin və iş adamlarının geniş tərkibli konfransında məmurları yerli mebellərdən istifadə etməyə çağırmışdı: "Ölkədə yüzlərlə mebel şirkəti var. Amma yüksək vəzifəli məmurlarımız bunu bəyənmirlər.**



*"Müvafiq qurumlar, şirkətlər yerli istehsala aid olan mebelləri almaqla digərlərinə nümunə olmalıdırlar"*

Yerli istehsalın keyfiyyəti başqa mebeldən fərqlənmir, amma deyir, bu, Azərbaycan malıdır, özünə rəva bilmir. Gərək İtaliya, Rumıniya mebeli olsun. Buna son qoymaq lazımdır. Bütün dövlət məmurlarının kabinetində bundan sonra yerli mebel olmalıdır".

Ancaq qeyri-neft sektorunun inkişafı istiqamətində ciddi işlərin görüldüyü son üç il ərzində ölkəmizin mebel sahəsində idxaldan asılılığı nəinki azalıb, əksinə, artıb. Bunu statistik rəqəmlər də təsdiqləyir. Belə ki, Azərbaycana mebel idxalı əvvəli illərlə müqayisədə artıb. Müqayisə üçün qeyd edək ki, 2018-ci ildə ölkəyə 105 milyon 600.33 min dollar dəyərində mebel və onun hissələri idxal edilib. Bu, 2017-ci illə müqayisədə 20 faiz çoxdur. Məsələ ondadır ki, 2017-ci ildə ölkəyə 85 milyon 313.34 min dollar dəyərində mebel və onun hissələri gətirilib. Rəqəmlərdən göründüyü kimi, mebel idxalı əhəmiyyətli dərəcədə artıb. Bu isə çox ciddi rəqəmdir.

Onu da qeyd edək ki, ümumilikdə, bəzi detallar xaricdən gətirilsə də, ölkədə mebel istehsal olunur. Mebel sexlərinin sayı əvvəlki illərlə müqayisədə xeyli artıb. Mebelin əsas sütununu təşkil edən taxta və laminat materialı Azərbaycanda yetərincə istehsal olunur. Əsas zavodları isə Masallıdadır. Mebelin əsasən parçası və digər bəzək detalları xaricdən gətirilir. Bütün bunlara baxmayaraq, əsasən Rusiya, Türkiyə və Çindən mebellər idxal olunur.

Bir məqamı da qeyd edək ki, xaricdən idxal olunan mebellərin qiyməti bahadır. Onlar 3000 manatdan başlayır. Yerli istehsal olunan mebellər onlara baxanda ucuzdur.

Bütün bu deyilənlərin fonunda, maraqlıdır, mebel idxalı niyə artır? Bu, əhalinin xarici mebellərə fərdi tələbatının artması ilə bağlıdır? Əhalinin yerli istehsal olan mebellərə marağı niyə azdır? Bütövlükdə, bu sahədə nə baş verir?

**Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Vüqar Bayramov bunu bir sıra amillərlə, əsasən də yerli istehsal olan mebellərə inamın az olması ilə əlaqələndirdi:** "Xaricdən mebel idxalının azalması üçün yerli istehsala aid olan mebellərə inam artmalıdır. İnam artarsa, o zaman yerli istesal olan mebellərin alışına da maraq artacaq. Ona görə də, başlıca olaraq, bu istiqamətdə inamın formalaşdırılması üçün işlər görülməlidir. Təəssüf ki, apardığımız monitorinqlər bunun əksini göstərir. Aparılan monitorinqlər göstərir ki, hələ də yerli istehlakçılar arasında yerli mebellərə maraq aşağıdır. Halbuki, bu sahədə yaxşı fəaliyyət göstərən müəssisələr var. Nəticədə xarici mebellərin alınmasına maraq böyük olaraq qalır. Yerli istehsal olan mebellərə tələbin artması üçün onlara olan inamı artırmaqla bağlı işlər görülməlidir. Müvafiq qurumlar, şirkətlər yerli istehsala aid olan mebelləri almaqla digərlərinə nümunə olmalıdırlar. Bununla bağlı fəal olmalıdırlar. Hələlik buna nail olmamışıq, amma bu yöndə səyləri artırmaq lazımdır. Eyni zamanda, yerli mebel istehsalını daha da artırmaq lazımdır. Birmənalı şəkildə, Azərbaycanda mebel brendləri yaradılmalıdır. Hesab edirəm ki, bu minvalla yerli mebel istehsalına inam və marağın formalaşmasına nail ola bilərik. O baxımdan, inam və maraq artarsa, xaricdən mebel idxalı nəzərəçarpacaq dərəcədə azalacaq. Nəticədə daha çox yerli məhsul istehsal olunacaq və xaricə mebel idxalı ilə bağlı valyuta axmaz".

***Vidadi ORDAHALLI***

## Yol polisləri gecə saatlarında kobud qayda pozan sürücülərə qarşı profilaktik tədbir keçirib

**Bakı şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsinin əməkdaşları tərəfindən paytaxtın müxtəlif küçə və prospektlərində gecə saatlarında kobud qayda pozuntuları törədən sürücülərin aşkar edilməsi məqsədilə növbəti maarifləndirici-profilaktik tədbir keçirilib. Tədbir zamanı sərxoş, yol polisinə tabe olmayan, nəqliyyat vasitəsinin konstruksiyasında dəyişiklik edən sürücülərə rast gəlinib.**




Qeyd edək ki, son zamanlar bəzi sürücülər avtomobilə konstruksiya dəyişikliyi etmədən maşının yük yerinə su qabları, beton qırıntıları, daş parçaları və digər ağır əşyalar yığırlar. Bununla da onlar avtomobilin ön hissəsinin qalxmasına, arxa hissəsinin isə aşağı enməsinə nail olurlar. Tədbir zamanı bu üsulla, yəni avtomobilin yük yerinə daş parçaları yığaraq nəqliyyat vasitəsinin görünüşünü dəyişən sürücülər də aşkar edilib. Nəsimi rayonunda saxlanılan "VAZ- 2107" markalı avtomobilin yük yeri yoxlanan zaman oradan iri daş parçaları aşkar olunub.

Profilaktik tədbir zamanı daha bir sürücü avtomobili sürətlə, digər hərəkət iştirakçılarına ciddi təhlükə yaradaraq idarə etdiyi üçün Yasamal rayonu ərazisində saxlanıb. "KİA" markalı avtomobilin sürücüsü yol hərəkəti qaydalarını pozduğu üçün onun barəsində inzibati protokol tərtib edilib.

Tədbir zamanı nəqliyyat vasitələrinin konstruksiyasında dəyişiklik edən sürücülər də müəyyən edilib. Həmin sürücülər inzibati qaydada cərimə edilib və nəqliyyat vasitələri cərimə dayanacağına yerləşdirilib.

Bakı şəhər Baş Polis İdarəsi Dövlət Yol Polis İdarəsi bildirir ki, bu tipli maarifləndirici tədbirlər bundan sonra da davam etdiriləcək.

## Gömrük Akademiyasının 4-cü kurs tələbələri dövlət təşkilatlarında istehsalat təcrübəsinə başladı...

**Dövlət Gömrük Komitəsi Akademiyasının IV kurs tələbələri 18 fevral 2019-cu il tarixdən 14 həftə ərzində bir sıra müxtəlif dövlət qurumlarında istehsalat təcrübəsi keçəcək.**



DGKA-nın İctimaiyyətlə əlaqələr şöbəsindən "Bakı Xəbər"ə verilən məlumata görə, Akademiyanın rəisi Qulu Novruzov təcrübəyə gedəcək tələbələr və onların təcrübə rəhbərləri ilə görüşüb. Qulu Novruzov "Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" və "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 14 fevral 2019-cu il tarixli Sərəncamlarına toxunub və dövlət tərəfindən gənclərə göstərilən diqqət və qayğını xüsusilə qeyd edib.

Ali təhsil müəssisələrində tədris prosesi ilə yanaşı, tələbələrin əldə etdikləri bilik və bacarıqları təcrübədə tətbiq etmələrinin vacibliyini bildirən Qulu Novruzov tələbələrin təhsillə yanaşı, praktiki iş bacarıqlarına malik olmasının əhəmiyyətini qeyd edib.

Akademiya rəisi buraxılış işlərinin mövzularına uyğun olaraq tələbələrin Dövlət Gömrük Komitəsi, Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu, Azərbaycan Milli Elmlər Akademiyasında təcrübə keçəcəklərini bildirərək, onlara bu müddətdə uğurlar arzulayıb.

Qulu Novruzov cari tədris ilində istehsalat təcrübəsinin yeni fərqli formatda təşkil olunduğunu nəzərə çatdırıb. O, tələbələrin təcrübə keçdikləri dövlət qurumlarının fəaliyyəti ilə yaxından tanış olmaq imkanı əldə etdiklərini də qeyd edib.

**Daha sonra Akademiyanın təlim və innovasiyalar üzrə rəis müavini Ramiz Hümbətov tələbələri təcrübə gündəliyinin doldurulması, təcrübənin sonunda hesabatın yazılması qaydaları ilə bağlı təlimatlarla tanış edib.**

*Baki-xeber.com*

# İqtisadçı-alim "Fitch"in Azərbaycanda iqtisadi artımla bağlı dediyi rəqəmlə razılaşmadı...

### *Fikrət Yusifov: "Mən hesab edirəm ki, iqtisadi artım 3,5 faiz deyil, 5-6 faiz səviyyəsində olacaq"*

**2019-cu ildə Azərbaycanda iqtisadi artımın 3,5 faiz təşkil edəcəyi ehtimal olunur. Bu barədə "Fitch Ratings" agentliyinin yeni hesabatında deyilir.**

Agentlik tərəfindən Azərbaycanın emitentinin uzunmüddətli xarici valyutada defolt reytinqi "BB+" səviyyəsində və sabit olaraq təsdiq olunub.

Qeyd olunur ki, bu il Azərbaycanda iqtisadiyyatın artım templəri "Şahdəniz" qaz-kondensat yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində qaz tədarükü ilə bağlı olacaq. Bundan başqa, turizm və kənd təsərrüfatı sahələrinin də iqtisadi artıma səbəb olacağı qeyd olunur. Bundan başqa, agentlik ölkənin bank sektorunda vəziyyətin yaxşılaşmasını qeyd edir.




*"Aqrar sektor, turizm və yükdaşımalar sahəsində sürətli inkişaf özünü göstərir və göstərəcək"*

**Cari il ərzində ölkənin iqtisadi artımının 3,5 faiz olacağı barədə fikir bildirən iqtisadçı, ekspert-alim Fikrət Yusifov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, ölkə iqtisadiyyatında qeydə alınacaq inkişaf 3,5 faizdən daha çox olacaq:** "Öncəki illərdən fərqli olaraq, bu il ölkə iqtisadiyyatında hər hansı bir xoşagəlməz hal qeydə alınmayacaq. Ölkə iqtisadiyyatında inkişaf sürəti arzuolunan səviyyəyə çatmaq üzrədir".

Həmsöhbətimizin sözlərinə görə, iqtisadiyyatın inkişafı istiqamətində aparılan işlər özünü daha çox qeyri-neft sektoru və qeyri-neft sənayesində göstərir. Onun fikrincə, aqrar sektor, turizm və yükdaşımalar sahəsində sürətli inkişaf özünü göstərir və göstərəcək.

**Təbii ki, bu sahədə aparılan işlər sayəsində ölkə iqtisadiyyatında artım qeydə alınacaq: "Fitch Ratings" agentliyinin yeni hesabatında qeyd olunur ki, 2019-cu ildə Azərbaycanda iqtisadi artım 3,5 faiz səviyyəsində olacaq. Ancaq mən hesab edirəm ki, iqtisadi artım 3,5 faiz deyil, 5-6 faiz səviyyəsində olacaq".**

*Günel CƏLİLOVA*

# "AZZA" ofisi tortun içindən çıxmış yad cisimlə bağlı niyə açıqlama vermək istəmədi?

**Məşhur şirniyyat dükanı olanı "AZZA"da satılan tortların tərkibi ilə bağlı mediada məlumat yayılıb. Qeyd olunur ki, adıçəkilən şirniyyat evindən alınan tortun içərisindən sellofan torba çıxıb.**

Bu halla Bakı şəhər sakini Bayram Qubaxanlı üzləşib. O, "Report"a verdiyi məlumatda qeyd edib ki, "AZZA" şirniyyat evinin paytaxtın Nəsimi rayonunda yerləşən filialından tort alıb: "Amma tortu kəsən zaman içərisindən bükülmüş sellofan torba aşkarlanıb".

O, rastlaşdığı xoşagəlməz hadisə ilə bağlı şirniyyat evinə müraciət etsə də, əvvəlcə tortun qaytarılmasının mümkün olmadığını bildiriblər.

**Bir həftə sonra isə tortu geri alan şirniyyat evinin əməkdaşları hadisə ilə bağlı araşdırmalara başlanacağını qeyd ediblər.**




"Əvvəl tortu qaytarmaq istəmirdilər. Mənə dedilər ki, biz inanmırıq, bəlkə özünüz qoymusunuz. Amma sonradan sübut olundu ki, sellofan torbanın alıcı tərəfindən tortun içərisinə qoyulması mümkünsüzdür. Mənə bildirdilər ki, araşdırmaların yekun nəticələri haqda məlumat veriləcək. Sonradan gah dedilər ki, sabah, gah dedilər ki, birisigün məlum olacaq. Bir həftədən sonra zəng etdilər ki, tortu götürə bilərəm. Mən də Nizami rayonunda yaşadığımdan, orada yerləşən "AZZA" şirniyyat evindən tortu götürmək istədim.

**Mənə bildirdilər ki, hadisə ilə hansı filialda qarşılaşmışamsa, tortu ancaq oradan götürə bilərəm. Nəhayət, 1 həftəlik süründürməçilikdən sonra mən tortu qaytardığım filialdan götürə bildim".**

Mətbuatda yayılan məlumatla bağlı "AZZA" şirniyyat evinə də müraciət etdik. Ancaq şirkətin İsrafil adlı piar nümayəndəsi "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, onlar bu məsələ ilə bağlı hər hansı açıqlama vermək istəmirlər.

*Günel CƏLİLOVA*

# Deputat Gəncədəki anormal heykəlin Cavad xana məxsusluğunu birmənalı inkar etdi...

**Bu günlərdə qəzetimizin əməkdaşı Gəncədə olarkən bu şəhərin müxtəlif yerlərinə baş çəkib, o cümlədən də yolunu Gəncə xanı qəhrəman Cavad xanın adını daşıyan küçədən salıb. O bu küçədə yerləşən "Kolorit" restoranının qarşısında bir heykəl görüb və bu heykəlin kimə məxsus olması ilə maraqlanıb. Ona bildiriblər ki, heykəl Cavad xana aiddir. "Xalq öz qəhrəman oğullarını heç vaxt unutmur.**



***Naqif Həmzəyev:** "Bu heykəlin Cavad xana məxsus olması ilə bağlı deyilən fikirlər, birmənalı olaraq, yalandır və bu bir təxribatdır"*

***Sənan Hacıyev:** "Cavad xan küçəsində Cavad xanın heykəli yoxdur"*

Onlardan biri olan Cavad xanın xatirəsi layiqincə əbədiləşdirilib. Heydər Əliyev Fondu tərəfindən Gəncə Cümə məscidinin həyətində Cavad xanın türbəsi ucaldılıb. Gəncədə və Bakıda onun adına küçə var. Ancaq maraqlıdır ki, Gəncə şəhərində olduğumuz zaman Cavad xanın adını daşıyan küçədə onun əzəməti və qüdrəti ilə uzlaşmayan bir mənzərənin şahidi olduq. Qəhrəmanın adını daşıyan küçənin lap başlanğıcında, "Kolorit" adlanan restoranın düz qabağında Cavad xana aid olduğu deyilən bir "heykəl" qoyulub" - deyə qeyd edən əməkdaşımızın bu barədə hazırladığı yazı həm ictimaiyyətdə, həm də sosial şəbəkələrdə geniş müzakirə edilib.

Həqiqətənmi bu heykəl Gəncənin azadlığı uğrunda son damla qanına qədər vuruşan, onu yadellilərdən qoruyan Cavad xana aiddir?

**Gəncədən seçilmiş millət vəkili Naqif Həmzəyev "Bakı-Xəbər"ə bildirdi ki, Bakıda və Gəncədə Cavad xanın xatirəsinin əbədiləşdirilməsi istiqamətində işlər görülüb.** O bizimlə söhbətində bu heykəlin qətiyyən Cavad xana aid olmadığını bildirdi. "Bu heykəl qətiyyən Cavad xana aid deyil. Bu heykəlin Cavad xana məxsus olması ilə bağlı deyilən fikirlər, birmənalı olaraq, yalandır və bu bir təxribatdır. Bunu hansısa insanlar gündəm yaratmaq üçün meydana atıblar. Keçmiş Sabir küçəsi, indi isə Cavad xanın adını daşıyan həmin küçədə onun xanlığı dövrünə aid müxtəlif peşə sahiblərinin personajları heykəlciklər formasında yaradılıb. Burada həmin dövrün ab-havası, mühiti yaradılıb. Həmin heykəl də o personajlardan biridir. O küçə Cavad xanın xanlığı dövrünün memarlıq üslubuna uyğun qurulub. Bu küçədə hər şey qədim üsluba uyğundur, burada o dövrə aid geyimlər, o dövrün mənzərəsini əks etdirən elementlər yer alıb. Dediyim kimi, bu küçədə çoxlu heykəl var və o heykəllər həmin dövrün insanlarının personajlarıdır. Qeyd edim ki, Gəncədə Cavad xanın xatirəsinin əbədiləşdirilməsi üçün müxtəlif işlər görülüb. Gəncədə Şah Abbas məscidinin yanında Heydər Əliyev Fondunun dəstəyilə Cavad xanın məqbərəsi tikilib. Gəncədə Cavad xana əzəmətli bir heykəl ucaldılması ilə bağlı Mədəniyyət Nazirliyi tərəfindən işlər görülür və yaxın vaxtlarda o heykəlin ucaldılması gözlənir".

**Gəncə Mədəniyyət İdarəsinin rəisi Sənan Hacıyev də bizimlə söhbətində o heykəlin Cavad xana məxsus olduğunu, birmənalı olaraq, inkar etdi.** "Cavad xan küçəsində Cavad xanın heykəli yoxdur. Həmin heykəl isə Cavad xana aid deyil. O heykəllər müxtəlif personajlardır, simvolik fiqurlardır. Orada muğam haqqında heykəllər var" - deyə S.Hacıyev vurğuladı.

Hər halda, mövzu ilə bağlı rəsmi şəxslərin verdiyi reaksiyaları məqbul saymaq olar. Çünki qəzet olaraq bizim də bu məsələdə marağımız tarixi şəxsiyyətə hörmət və ehtiramdan irəli gəlib. Sözügedən heykəlin məhz Cavad xan küçəsində qoyulması və onun üzərində bu barədə lövhənin vurulması, həmçinin, personajın, cüzi olsa da, Cavad xanın real cizgilərini əks etdirməsi Gəncə ictimaiyyətində və bura gələn turistlərdə yanlış təsəvvürlərin yaranmasına səbəb olar. Yaxşı olardı ki, Gəncə Şəhər Mədəniyyət İdarəsi həmin personajın kimə aid olduğunu xüsusi bir lövhədə bildirsin.

***İradə SARIYEVA***

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

**(Əvvəli ötən saylarımızda)**

**AĞAYEV VİDADİ SƏCCƏT oğlu**



5 mart 1959-cu ildə Azərbaycan Respublikasının Ağdam rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Ağdam rayon mərkəzində yaşamışdır. Ağdam RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Ağayev Vidadi Səccət oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 23 iyul 1993-cü ildə Ağdam rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Ağayev Vidadi Səccət oğlu 23 iyul 1993-cü il tarixində Ağdam rayonu ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Ağayev Vidadi Səccət oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**AĞAYEV YALÇIN RAFİQ oğlu**



1 may 1973-cü ildə Azərbaycan Respublikasının Cəbrayıl rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Ağcabədi rayonunun Boyat kəndində yaşamışdır. Ağcabədi RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Ağayev Yalçın Rafiq oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 16 iyun 1993-cü ildə Ağdam rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Ağayev Yalçın Rafiq oğlu 16 iyun 1993-cü il tarixində Ağdam rayonunun Qalayçılar kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Ağayev Yalçın Rafiq oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**AĞAYEV YUSİF BALASƏF oğlu**



12 sentyabr 1959-cu ildə Azərbaycan Respublikasının Şamaxı rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Şamaxı rayonunun Çöl Bağırlı kəndində yaşamışdır. Könüllü olaraq Milli Ordu sıralarına qoşulmuşdur. Hərbçi. Ağayev Yusif Balasəf oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 26 yanvar 1992-ci ildə Şuşa rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Ağayev Yusif Balasəf oğlu 26 yanvar 1992-ci il tarixində Şuşa rayonunun Daşaltı kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Ağayev Yusif Balasəf oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**AĞAYEV YUSİF TƏZƏXAN oğlu**



25 mart 1959-cu ildə Azərbaycan Respublikasının Əli Bayramlı (indi Şirvan) şəhərində doğulmuşdur. Hərbi xidmətə qədər Şirvan şəhərində yaşamışdır. Şirvan ŞHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Ağayev Yusif Təzəxan oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 20 mart 1993-cü ildə Ağdərə rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Ağayev Yusif Təzəxan oğlu 20 mart 1993-cü il tarixində Ağdərə rayonunun Canyataq kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Ağayev Yusif Təzəxan oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**

**Qadın özü elə şeirdir. Təpədən dırnağa poeziya, lirik duyğular mücəssəməsidir qadın. Şeirdən biçilən qadının özü şeir yazanda sözlə gözəlliyin, ruhla ürəyin qırılmaz vəhdəti yaranır. 55 illik bir ömür yolu gələn, bu yolda qarşısına çıxan bütün maneələri dəf etməyi bacaran "Ulduz" jurnalının poeziya şöbəsinin müdiri, tanınmış şairə Fərqanə Mehdiyeva daxilən də, zahirən də şeirin özünə bənzəyir.**

# "Boz ədəbiyyata xidmət edən qadınlar müxtəlif vasitələrlə müxtəlif alimlərin, akademiklərin yanına yollar tapırlar və onları bezdirib kitabları üçün "xeyir-dua" alırlar"

***Fərqanə Mehdiyeva:** "55 illik yubileyimdə hansısa bir mükafat verilərsə, bunu yaradıcılığıma, ömrümü həsr etdiyim poeziyama bir töhfə hesab edərəm"*

Fərqanə xanımla söhbətimiz zamanı o, 55 yaşın həyəcanlarını, şeirimizin bu gününü, ədəbiyyatımızın vəziyyətini dilə gətirdi.

**- Fərqanə xanım, 55-in astanasında Sizi xoş gördük. Nədir bu yaşın həyəcanı, sevinci?**

- Əslində, 55 yaşıma çatmağımı çox arzulayırdım. Keçirdiyim ağır xəstəliklə əlaqədar olaraq heç bu yaşa çatacağıma ümid etmirdim. Hey düşünürdüm ki, görəsən 55 yaşımı görmək mənə nəsib olacaqmı? Şükür Allahın bu gününə, mən bu yaşımı görə bildim.

- Şeirlərinizdən birində deyirsiniz ki:

*Donmuşam, yumşaq deyiləm,*
*Əyilmişəm, şax deyiləm,*
*Mən daha uşaq deyiləm,*
*Deyib də "gözlə" aldatma...*

**Yəni şairləri belə tez aldatmaq olur ki?**

- Bilirsiniz, şairlər uşaq kimidir. Şairi aldatmağın nəyi var ki... Deyim ki, 55 yaşım olmasına baxmayaraq, yenə də məni aldatmaq mümkündür. Çünki şair özü hiyləsiz, riyasız olur. Mən əsl şairdən danışıram. Bu şəhər, qaynar həyat ürəyimi, ruhumu dəyişdirə bilmədi. Yenə əvvəlki duyğularımla, ruhumla yazıram. Nəyi yaşayıram, onu da şeirə çevirirəm. Ümumiyyətlə, bəzən deyirlər ki, şairlər görüb müşahidə etdiklərini yazırlar. Bir tərəfdən razıyam ki, bəli, şairlər ictimai həyatda qarşılaşdıqlarını yaza bilirlər, amma, bütövlükdə, şair özünü, öz yaşantılarını, öz həyatını və taleyini yazır. Burada başqa təsir yoxdur. Kim nə yaşayır, onu da şeirə çevirir. Yalandan demək lazım deyil ki, başqasının həyatını, taleyini yazıram. Yaşamadığını necə yaza bilərsən ki?!

**- Qadının şair olmağı çox çətindir. Bəzən "belə yazsam görəsən cəmiyyət, yaxud tanıdıqlarım mənim haqqımda nə düşünər" deyir qadın şairələr. Siz necə, heç belə bir dilemma ilə qarşı-qarşıya qalıbsınızmı?**

- Mən şeirin, ədəbiyyatın, xüsusən də yaradıcılığın qadın və kişi ayrıntılarına bölünməsini qəbul etmirəm. Şair elə şairdir. Burada əsas meyar istedaddır. Ancaq fərqləndirmək lazım gələrsə, deyim ki, Azərbaycanda çox güclü qadın poeziyası olub və bu gün də var. Ədəbiyyatımızın çox nəhəng qadın simaları olub. Onları siz də oxumusunuz, əsərləri ilə tanışsınız. Bəli, qadının şair olmağı çox çətindir. Deyərdim ki, məşəqqətdir. Qadın şairdirsə, həmişə fikri şeirin yanında olur. Bu da ona çətinliklər yaradır. Sən həm ev, həm uşaq, həm həyat yoldaşı, həm gündəlik qayğılar, həm də şeir və ədəbiyyat haqqında düşünürsən. Hələ, üstəlik, başqa təsirlər və qayğılar da var. Əlbəttə, bir qadının bunları daşıması çox çətindir, ağırdır. Mən hələ şeirimə görə hansısa bir dilemma qarşısında qalmamışam. Yoldaşım məni çox yaxşı tanıyır, şeirlərimi oxuyur. Nə yaxşı ki, həyat yoldaşım var, yoxsa mənim vəziyyətim necə olardı, bilmirəm... Elə vaxtlar olub ki, şeirə görə çayım qaynayıb daşıb, xörəyim yanıb, aləm bir-birinə qarışıb. Bilirsiniz, həmişə şeirin yanında oluram. Elə hallar olur ki, evdə söhbət edirik, oğlum nə isə danışır, sonra ona mənim münasibətimi soruşur. Cavab verə bilmirəm, onda bilir ki, yenə şeir haqqında fikirləşirəm və beynimdəki misraları kağıza köçürmək istəyirəm.

**- Həyat yoldaşınızın yaradıcılığınıza münasibəti necədir?**

- Yaxşıdır. Məni ən çox oğlum oxuyur. O, əslində, ədəbiyyat, poeziya vurğunudur. Həyat yoldaşım həyatda ən çox güvəndiyim, arxalandığım insandır. Mənim yaradıcılığıma həmişə dəstək olub. İnanın ki, mən İranda xəstə yatanda, o çox əziyyət çəkdi. Ağır günlərimdə yanımda oldu. Mən xəstəxanada əzab çəkəndə əlini göyə atıb Allaha yalvarırdı ki, mənə rəhm eləsin (ağlayır). Mən ondan yerlə göy qədər razıyam. İnanın ki, məni həyatda o idarə edir.

**- Fərqanə xanım, Siz çağdaş poeziyamızın sayılıb-seçilən simalarından birisiniz. Bu öz yerində. Hazırda "Ulduz" jurnalının şeir şöbəsinə rəhbərlik edirsiniz. Şairlərlə necə yola gedirsiniz? Sizdən narazı qalanlar olurmu?**

- Sözsüz ki, "Ulduz" jurnalı ədəbi dərgilər sırasında öz sanbalı, missiyası, ədəbiyyatımıza xidmətilə seçilir. Xüsusən də gənclərin ədəbiyyata gəlməsinə güclü təkan verir. Ədəbiyyatımızın bu günü və sabahı haqqında bədbin deyiləm. Bu gün çox gözəl şairlərimiz var. Ədəbiyyatımıza çox istedadlı gənclər gəlib. Amma təəssüf ki, istedadlı gənclərimiz çox azdır. İndi daha çox Azərbaycan poeziyasına xas olmayan izimlər arxasınca gedənlər var və onların yazdıqlarını adam oxuyanda təəccüblənir ki, bunun harası poeziyadır? İndi özünü modernist, postmodernist kimi təqdim edənlər çoxalıb və bu da, əlbəttə, təhlükəli haldır. Şeir yaza bilməyən adamların şairliyə iddia etməsi doğrudan da gülünc görünür. "Ulduz" jurnalında işləyəndən ən çox boz ədəbiyyat təmsilçilərinin haqsızlıqları ilə qarşılaşıram. Bir də görürsən ki, bir evdar qadın, yaxud şeirin nə olduğunu bilməyən bir xanım "şeir gətirmişəm, çap edin" deyirlər, "şeir"i oxuyuram, görürəm ki, bu şeir yox, maklaturadır, sadəcə, söz yığınıdır, deyirəm ki, bunu çap edə bilmərik. "Şeir" yazan evdar qadınlar əsəbləşirlər ki, şair olmasaydım, filan akademik kitabıma ön söz yazmazdı, redaktoru filan xalq şairi olmazdı. Bu akademiklər, professorlar, xalq şairləri nəyinsə xatirinə, hansısa təmənna qarşılığında ədəbiyyata dəxli olmayan adamları niyə bu qədər şərəfləndirirlər? Bu gün bir dəstə qadın peyda olub, "şairəm"deyib meydana çıxıblar, televiziyalarda çıxışlar edirlər, toylara tamada kimi gedirlər. Bu da, əlbəttə, onların şair olmamasının göstəricisdir. Təəssüf ki, bu gün boz ədəbiyyatın, rəngsiz, ruhsuz poeziyanın təmsilçilərinin sayı get-gedə çoxalır. Əvvəllər ərindən boşananlar "müğənni" olurdu, indi isə "şair" olurlar. Özü də bir iddia ilə, bir hikkə ilə jurnallarda çap olunmaq istəyirlər ki... Təbii ki, ədəbiyyata aidiyyəti olmayan, şeir yaza bilməyən adamın ədəbiyyat adamı adına iddialı olması qəbuledilən deyil. Bəzən belə adamlara mükafatlar, fəxri adlar verilir. Onlar bu mükafatları hansı yollarla əldə edir, məlumdur. Ədəbiyyatla bağlı mükafatlar əsl ədəbiyyat adamına verilməlidir ki, o öz zəhmətinin bəhrəsini görə bilsin. Doğrudur, biz mükafata, fəxri ada görə şeir yazmırıq, amma mükafatlar şairə, ədəbiyyat adamına stimul verir.

**- Sizcə, boz ədəbiyyat təmsilçilərinə nə üçün ədəbiyyatda belə şərait yaradılır? Akademiklər, professorlar, xalq şairləri, xalq yazıçıları niyə onlara "yaşıl işıq" yandırırlar?**

- Bunun müxtəlif səbəbləri var. Başlıcası isə odur ki, boz ədəbiyyat nümayəndələri yazdıqlarını qoltuqlarına vurub qapı-qapı gəzirlər, həmin alimləri, ədəbiyyat xadimlərini bezdirirlər. Birmənalı olaraq deyirəm ki, akademiklər, professorlar, ədəbiyyat xadimləri o insanların əlindən bezdikləri üçün onların kitablarına ön söz yazırlar. Bəlkə də heç özləri yazmır, köməkçilərinə tapşırırlar ki, onun kitabı üçün beş-üç cümlə cızma-qara et getsin. Elə adamların kitablarına rast gəlirəm ki, rəyçilərin elə böyük adamlar olduğunu görürəm. Boz ədəbiyyata xidmət edən qadınlar müxtəlif vasitələrlə müxtəlif alimlərin, akademiklərin yanına yollar tapırlar və onları bezdirib kitabları üçün "xeyir-dua" alırlar.

**- Fərqanə xanım, səhv etmirəmsə, İranda şeirlər kitabınız çap olunub. Şeirləriniz orada necə qarşılanır?**

- Bəli, Təbrizdə "Məni yağışda saxla" adlı şeirlər kitabım nəşr olunub. İnanın ki, onlar qüzey Azərbaycan şairlərinin şeirlərini çox sevirlər. Məmməd Arazı, Bəxtiyar Vahabzadəni, Şahmar Əkbərzadəni əzbər bilirlər. Yaradıcılığıma gəlincə, deyim ki, mənim şeirlərimi də sevirlər. Mən buradan ora gedəndə təkcə öz şeirlər kitablarımı deyil, həm də həmkarlarımın, şair dostlarımın şeirlər kitablarını da aparıram. Bununla da orada bu tay ədəbiyyatın təbliği ilə də məşğul oluram. İstəyirəm təkcə mənim yaradıcılığımı deyil, həm də həmkarlarımın şeirlərini oxusunlar.

İndiyə qədər 7 şeirlər kitabım çıxıb və həmişə ədəbiyyata, poeziyaya xidmət etmişəm.

**- 55 illik yubiley ilində gözləntiləriniz nədir?**

- Sözün düzü, ədəbiyyata aid bir sıra mükafatlar almışam. Mikayıl Müşfiq mükafatı, Rəsul Rza mükafatı və s. Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvüyəm.

Bilirsiniz, şairin varı-dövləti, qazancı oxucudur, oxucu rəyi, oxucu fikridir. Bu amil mənə böyük stimul verir. Hiss edəndə ki, sənin yazdıqlarını oxuyurlar, bu sənə qol-qanad verir. Hətta biləndə ki, şeirdən heç bir qazancın, gəlirin yoxdur, onda da oxunmağın sənin üçün böyük maddi dəyərdən artıq olur. Bu gün ədəbiyyatda, sənətin müxtəlif sahələrində tanışbazlıq, yerlibazlıq, qohumbazlıq çoxalıb, bu, sözsüz ki, sənətə zərər vurur. Yaxşı ədəbiyyatın yaranmasına, onun keyfiyyətinə zərbə vuran bu amillərin ədəbiyyatda olması ağrılı bir haldır. Nə edək ki, bundan canımızı qurtara bilmirik. İndi onun-bunun yerinə şeir yazan, roman yazan o qədər adam var ki. Adamlar tanıyıram ki, başqalarına şeir, nəsr, elmi iş yazmaqla dolanır, ailəsini saxlayır. Əslində, bu, ədəbiyyata xələl gətirir, bu sahəyə aidiyyəti olmayan boz ədəbiyyat nümayəndələrinin meydana çıxmasına şərait yaradır. Bir çox hallarda əsl söz adamı kənarda qalır, ancaq mükafatları haqqı olmayanlara verirlər, onlar da hər yerdə "mükafat"ları ilə öyünürlər. Əlbəttə, özgəsindən pulla aldığı şeir, poemaya görə şöhrətlənənlər də yox deyil. Onlar cild-cild kitablar çap etdirirlər və bu kitablarla sarayları, institutları, başqa məkanları "işğal" edən adamların sayı yaman çoxalıb. Onlar televiziyalarda da, başqa yerlərdə də başa çəkilirlər. Ömründə əlinə qələm almayan bir adam 50 yaşından sonra "şair" kimi qəfil meydanda peyda olur. Bunlar kütləvi olsalar da, nə yaxşı ki, əsl şairlər, istedadlı adamlar onların kölgəsində itib batmır, əksinə, daha da parlaq görünürlər.

55 illik yubileyimə gəlincə, çox istəyirəm ki, qələm dostlarımı başıma toplayıb yaddaqalan bir məclis təşkil edim. Bu həm də mənim ədəbi ictimaiyyət və oxucular qarşısında bir yaradıcılıq hesabatım olacaq. Mükafata gəlincə, yuxarıda dediyim ki, bir sıra mükafatlarım var. Ancaq 55 illik yubileyimdə hansısa bir mükafat verilərsə, bunu yaradıcılığıma, ömrümü həsr etdiyim poeziyama bir töhfə hesab edərəm.

***İradə SARIYEVA***



*"Bir də görürsən ki, bir evdar qadın, yaxud şeirin nə olduğunu bilməyən bir xanım "şeir gətirmişəm, çap edin" deyir, "şeir"i oxuyuram, görürəm ki, bu şeir yox, maklaturadır, sadəcə, söz yığınıdır, "bunu çap edə bilmərik" deyirəm"*

# Gənc aşıqlar arasında dastan bilgisizliyi hökm sürür...

**Ənənəvi aşıq sənətinin hazırkı durumu haqqında danışarkən aşıqlığın bəzi gələnəklərinin sıradan çıxmaq üzrə olduğunu müşahidə edirik. Dastançılıq kimi. Aşığın aşıq kimi yetkinliyini göstərən əsas amillərdən biri olan dastançılığa hazırkı aşıqların elə də maraq göstərməməsi gizlin deyil. Əlbəttə, aşığın aşıq kimi mükəmməlliyinin sübutu olan dastançılığın bu günü ustadları, aşıqsevərləri, alimləri ciddi narahat edir.**



***Məhərrəm Qasımlı:** "Artıq Mədəniyyət Nazirliyində bu məsələlərə baxılıb və "Dastan Teatrı"nın yaradılması ilə bağlı işlər getməkdədir"*

***Aşıq Ramin Qarayev:** "Dastan Teatrı"nın yaradılması yaxşı olardı, bəlkə bu yolla aşıqların repertuarındakı dastanlar gün işığına çıxa bildi"*

***Aşıq Avdı Musayev:** "Dastançılıq ənənəsinin sıradan çıxması klassik aşıq məktəbinin davamçılarından biri kimi məni çox narahat edir"*



Onların narahatlığı anlaşılandır. Lakin günümüzün elə reallıqları var ki, onlar dastanların aşıqların repertuarında yer almasına imkan vermir. Bir tərəfdən narahat oluruq ki, aşıq sənətinin əsas sütunlarından biri olan dastançılıq sıradan çıxmaq təhlükəsi ilə üzləşib, o biri tərəfdən isə dastançılığın inkişafına, yenidən həyata qayıtmasına şərait yaratmırıq. Müasir toylarda aşıqların iştirakına sıx-sıx rast gəlinsə də, həmin məclislərdə aşıqdan nə klassik saz havaları tələb olunur, nə də dastan.

Heç şübhəsiz ki, dastanların yaşadılması, təbliğ edilməsi istiqamətində Azərbaycan Aşıqlar Birliyi, Mədəniyyət Nazirliyi və AMEA-nın Folklor İnstitutu müəyyən tədbirlər görür, layihələr həyata keçirirlər. Ancaq bunlar, bütövlükdə, dastançılıq sənətini ayağa qaldıra bilmir. Bunun üçün əvvəlcə aşıqların özünün repertuarında dastanlar olmalıdır. Özü də bir deyil, ən azı 10-15 dastan. Müasir aşıqlar isə dastan öyrənməyə elə də həvəs göstərmirlər. Bunun səbəblərindən biri indiki aşıqların böyük əksəriyyətinin ustad görməməsi, ustad aşığa şəyirdlik etməməsidirsə, digər səbəb dinləyicilərin dastanlara tələbatının kəskin surətdə azalmasıdır. Əvvəllər Azərbaycan Televiziyasında "Dastan axşamı" keçirilərdi və ustad aşıqlar bu gecədə müxtəlif dastanlar danışardılar. Bunun özəlliklərindən biri o idi ki, ustadlar dastan danışarkən onların şəyirdləri də onlarla birgə səhnədə olardılar. Ustad dastan danışar, şəyird isə dastanı əsasən oxuyardı. Artıq bu özəllik, demək olar, sıradan çıxıb. Ustad aşıqların çoxunun dünyasını dəyişməsi orta nəsil aşıqların dastan yaradıcılığına meylinin azalmasına, gənclərin isə əsasən bu sahəyə maraq göstərməməsinə gətirib çıxardı.

**Azərbaycan Aşıqlar Birliyinin sədri, professor Məhərrəm Qasımlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Azərbaycan dövlətinin aşıq sənətinə göstərdiyi qayğı və diqqət nəticəsində aşıq sənətinin təhlükə altında olan gələnəkləri artıq yenidən həyata qayıtmaq üzrədir.** M.Qasımlının sözlərinə görə, dastançılığın inkişaf etdirilməsi üçün Aşıqlar Birliyi və Mədəniyyət Nazirliyi tərəfindən layihə və proqramlar hazırlanır. O vurğuladı ki, hazırda dastançılığın yenidən aşıqların repertuarına qaytarılması üçün tədbirlər görülür. Artıq Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin aşıq sənəti kafedrasında təhsil alan aşıqlara dastançılıq da tədris olunur. Onun sözlərinə görə, əvvəllər aşıq tələbələrə dastançılıq yuxarı kurslarda öyrədilirdisə, indi aşağı kurslardan başlanaraq mənimsədilir. O qeyd etdi ki, hazırda "Dastan Teatrı"nın yaradılması gündəmdədir. M.Qasımlının sözlərinə görə, artıq bu istiqamətdə işlər həyata keçirilir. Professor hesab edir ki, nəinki gənclər, hətta orta nəsil aşıqları da dastanlarımızı öyrənməlidirlər. Bəzi orta nəsil aşıqların da bu sahədə axsadığını vurğulayan Birlik sədrinin fikrincə, hələ bir neçə ustad aşıq həyatdadır və aşıqlar onların dastan yükündən bəhrələnməlidirlər. "Dastan Teatrı"nın funksiyasına gəlincə, M.Qasımlının dediyinə görə, bu teatrda dastanlar aşıqların və aktyorların iştirakı ilə səhnələşdiriləcək. Bunun müasir dövrdə dastançılığın təbliğində vacib olduğunu düşünən M.Qasımlının qənaətinə görə, bununla həm dastanlara qayıdış olacaq, həm də tamaşaçılar arasında dastana qulaq asmaq ənənəsi formalaşacaq. O deyir ki, dastanların təqdimat formasının yenilənməsi tamaşaçılarda dastana marağın artmasına səbəb olacaq. Bu gün toylarda dastanlara meydan verilmədiyini deyən professor Qasımlının sözlərinə görə, uzun müddət dastançılığın gözləmə mövqeyində dayanması bu amillə də sıx bağlıdır. "Müasir aşıqların dastan bilməsi, ustadlardan miras qalan və aşıqlıq mədəniyyətinin özəyini təşkil edən bir sahənin inkişafı, yenidən gündəmə gəlməsi, həyata qayıtması vacibdir. Bu məsələ bizi uzun illərdir düşündürür. Məlumdur ki, zamanla dastançılıq ənənəsi öz aktuallığını itirdi və məclislərdən kənara düşdü. Bu, əsasən, insanların vaxt azlığı ilə bağlı məsələ kimi xarakterizə olunurdu. Bilirsiniz ki, toylarda hazırda dastan söylədən, aşıqdan dastan tələb edən insanlar yoxdur. Bu da vaxt azlığı ilə bağlıdr. Bilirsiniz ki, Azərbaycan Aşıqlarının VI Qurultayında dastançılıq ənənəsinin yenidən bərpa olunması məsələsini qaldırdıq. Artıq Mədəniyyət Nazirliyində bu məsələlərə baxılıb və "Dastan Teatrı"nın yaradılması ilə bağlı işlər getməkdədir. Yaxın zamanda "Dastan Teatrı" yaradılacaq və tamaşalar göstərilməyə başlayacaq. Ancaq bu yolla dastançılığı geri döndürmək olar. Teatra isə hər yoldan ötən aşığı cəlb etməyəcəyik. İstedadlı aşıqlar, ustad sənətkarlar teatra cəlb olunacaq" - deyə M.Qasımlı qeyd etdi.

**Borçalı aşıq mühitinin təmsilçisi aşıq Ramin Qarayev "Bakı-Xəbər"ə bildirdi ki, bu gün gənc aşıqlar arasında dastan bilənlər az da olsa var, lakin o dastanları tamaşaçılara çatdırmaq üçün şərait yoxdur.** Repertuarında klassik dastanlardan "Məsim və Diləfrüz", "Aşıq Qərib və Şahsənəm", "Əsli və Kərəm", son dövrlər yaranan dastanlardan isə "Əsmər və Mustafa", "Məftun və Leyli" kimi dastanlar var. "Koroğlu" dastanının bir neçə qolunu da bildiyini deyən aşıq Raminin sözlərinə görə, bəzi məclislərdə bu dastanlardan parçalar danışır. "Siz çox vacib və həssas bir məsələyə toxunmusunuz. Bu gün həqiqətən də toylarda, məclislərdə, efirlərdə dastanlarımıza maraq yoxdur. Mən özüm bir neçə dastan bilirəm, ancaq bu dastanları danışmaq üçün şərait yoxdur. Toylarda, məclislərdə imkan yaradılmır ki, bildiyimiz dastanları qonaqlara çatdıraq. Bakıdan fərqli olaraq, Borçalı məclislərində dastana tələbat hələ də qalıb. Elə məclis olur ki, orada məndən yalnız dastan istəyirlər, mən də böyük məmnuniyyətlə bildiyim dastanlardan danışıram. Aşığa dastan danışmaq üçün şərait yaradılmalıdır ki, o öz bildiyi dastanları çatdırsın" - deyə aşıq Ramin bildirdi.

O, "Dastan Teatrı"nın yaradılmasından gözləntilərinin olduğunu da dedi. Aşıq Ramin deyir ki, bu teatr yaradılarsa və aşıqlar orada dastanlar danışarsa, bu çox müsbət olar. "Tamaşaçı və dinləyiciləri dastanlara qaytarmaq lazımdır. Düzdür, bugünkü tamaşaçı kütləsini 4-5 saatlıq dastan danışmaqla əldə saxlamaq çətindir. Lakin dastanların yaşaması üçün tamaşaçılarda dastanlara sevgi yaratmalıyıq. "Dastan Teatrı"nın yaradılması barədə danışırlar. Bu teatr yaradıldıqdan sonra biz nəticə haqqında danışa bilərik. Bütövlükdə isə "Dastan Teatrı"nın yaradılması yaxşı olardı, bəlkə bu yolla aşıqların repertuarındakı dastanlar gün işığına çıxa bildi" - deyə aşıq Ramin bildirdi.

**Qazax aşıq mühitinin təmsilçisi aşıq Avdı Musayev də həmkarı kimi hesab edir ki, bu gün dastançılığa tələbat aşağı səviyyədədir.** O qeyd etdi ki, dastanların yenidən gündəmə qaytarılması bizə hava-su kimi lazımdır. "Biz dastanlara qayıtmalıyıq. Ancaq necə? Müasir aşığın dastan bilməsi şərtdirsə, onun tamaşaçılara çatdırılması yolları da əsas şərtdir. Mən özüm də, bəzi həmkarlarım da dastanlar bilirik. Ancaq heç bir toyda bizə "aşıq, bir filan dastanı danış" demirlər. Yəni dastan danışmağımızı bizdən tələb edən yoxdur. Bu da, istər-istəməz, dastan bilən aşıqları da həvəsdən salır.

Bu gün heç bir toyda aşıq dastan danışmır. Çünki tələbat yoxdur. Efirdə də dastan söyləmək üçün şərait yoxdur. Dastançılığın zəifləməsi aşıq sənətinə, sözün həqiqi mənasında, zərbə oldu. Əvvəllər dastan bilməyən aşıqlar barmaqla sayılırdı, bəlkə heç yox idi, ancaq bu gün dastan bilən aşıqlar barmaqla sayılır. Bu da ondan irəli gəlir ki, aşıqların dastan danışması üçün şərait yoxdur. Bu gün bəzi xüsusi təşkil olunan aşıq məclislərində kimlərsə bizə dastan danışdırır. Bu da ayda-ildə bir dəfə olur. Əgər aşıqdan dastan istəsələr, aşıq özünə məsuliyyətlə yanaşar, biliyini təkmilləşdirər, bilmədiklərini ustadlardan öyrənər. Dastançılıq ənənəsinin sıradan çıxması klassik aşıq məktəbinin davamçılarından biri kimi məni çox narahat edir. Hesab edirəm ki, dastançılığın sıradan çıxmaması üçün tədbirlər görülməlidir. Çoxları hesab edir ki, dastançılığın sıradan çıxması təbii prosesdir, dastan yaradıcılığı texnologiyaya uduzub. Bilirsiniz, elə etməliyik ki, uduzmasın. Bütün hallarda, dastanlar yaşadılmalıdır. İndi "Dastan Tearı" ideyası meydana gəlib. Sözün düzü, hələ bu teatr mövcud olmadığı üçün onun haqqında bir fikir söyləyə bilmərəm. Bircə onu deyə bilərəm ki, dastanlarımıza yenidən nəfəs verilməlidir və biz aşıqlar da bu işdə əlimizdən gələn köməyi əsirgəməməliyik" - deyə aşıq Avdı bildirdi.

***İradə SARIYEVA***

№ 33 (3931) ■ Qiymәti: 40 qәpik

BAKI XӘBӘR

19 FEVRAL 2019-cu il

www.baki-xeber.com



## İspaniyada 6 min illik tarixi olan it qәbiristanlığı aşkarlanıb

Barselona Universitetinin alimlәri İspaniyanın şimal-şәrqindә kütlәvi it qәbiristanlığı aşkarlayıblar. "AZӘRTAC" bildirir ki, qәbiristanlığın yaşının 6 min ildәn çox olduğu bildirilib. Әsas versiyaya görә, itlәr qurban kәsilәrәk sahiblәrinin yaxınlığında basdırılıb. Alimlәr itlәrin dәfn olunan insanlarla eyni qidadan istifadә etdiklәrini aşkarladıqdan sonra bu qәnaәtә gәliblәr. Bundan başqa, itlәrin hamısının 1-18 aylıq olması onların dini ayinlәr zamanı qurban kәsilmәlәri ehtimalını güclәndirir.

## Dilәnәrәk topladıqları pullarla 3 maşın aldılar

Dilәnәrәk topladıqları pullarla 3 maşın alan dilәnçilәri tanıyanlar şok keçirib. Hadisә Türkiyәnin Qaziantep şәhәrinin qәsәbәlәrindәn birindә baş verib. Dilәnçilәr notariusda pul sayarkәn görüntülәniblәr. Dilәnçilәri tanıyanlar şoka düşüb. Küçәlәrdә, insanların gur olduğu mәkanlarda özlәrini yazıq kimi göstәrәrәk, dilәnәn şübhәlilәr topladıqları "qәpik-quruş"la 3 maşın alıblar. Onlar notariusda pul sayarkәn bir nәfәr telefonla onları videoya çәkib. Ciblәrindәn vә cüzdanlarından topa-topa pullar çıxaran "dilәnçilәr" sәnәd işlәrini hәll etdikdәn sonra ofisdәn uzaqlaşıblar.



# NASA Ayda yaşamaq üçün baza tikmәyә hazırlaşır

**NASA yenidәn insanları Aya göndәrmәyi planlayır. Lakin bu dәfә planların uzunmüddәtli olacağı bildirilir.**




Bundan әlavә, Aya yalnızca kosmonavtlar deyil, sıradan insanlar da sәyahәt edә bilәcәklәr. Kosmik agentliyin direktoru, elәcә dә, ABŞ Konqresinin respublikaçı üzvü Jim Bridenstine bu mәsәlә ilә bağlı birbaşa Donald Trampdan tәlimat aldıqlarını deyib. O, insanların Aya gedә bilmәsi vә orada uzun müddәt yaşaması üçün lazım olan sistemlәrin әrsәyә gәtirilmәsindә Amerika şirkәtlәrindәn dәstәk gözlәdiyini dә vurğulayıb. Bridenstine Ayın sәthindә baza quracaqlarını vә artıq bunun üçün müәyyәn işlәrin görüldüyünü dә deyib. Daha sonra o, Aya gedib, orada insanların yaşaması haqqında әtraflı danışıb: "Artıq planlarımız 50 il әvvәl etdiyimiz kimi, Aya gedib, qısamüddәtli orada qalaraq, geri dönmәk deyil. Bu dәfә daha әlverişli, daha möhtәşәm texnologiyalar ilә Ayın sәthini araşdırıb, orada qalmağı, yaşamağı planlaşdırırıq. Bir sözlә, Aya getdiyimizdә orada qalacağıq. Biz orada uzunmüddәtli qala bilmәyi tәşkil etdikdәn sonra insanların da Aya sәyahәt etmәsinә imkan yaradacağıq.

Bir yandan da bunun ölkәmizin turizm sahәsindә uğurlarına tәkan olacağını düşünürәm. İnsanların oraya tәhlükәsiz şәkildә getmәsi vә geri qayıtması üçün lazım olan çalışmalara başlamışıq". Agentliyin direktoru bu planın önümüzdәki 10 il içәrisindә baş tutacağını da söylәyib.

## Elan

Bağırov Arif Hüseyn oğlunun adına 14.07.2005-ci ildә Tİ vә MHQ idarәsi tәrәfindәn verilmiş, Bakı şәhәri, Sәbail rayonu, Rәsul Rza küçәsi, ev 6, mәnzil 54 ünvanının qeydiyyat vәsiqәsi itdiyi üçün etibarsız sayılır.

Muxtarov Rafiq Raul oğlunun adına, Abşeron rayonu (Xırdalan) 1 nömrәli Hövsan Zeytunluq sovxozunda yerlәşәn torpaq sahәsinә çıxarış (reyestr N308011021450) vә texniki pasport itdiyi üçün etibarsız sayılır.

İsmayılova Hürü Bayramәli qızının adına, 600 kv.m. torpaq sahәsinә Bakı şәhәri, Bilәcәri Bәlәdiyyәsinin 671 saylı, 3 noyabr 2005-ci il tarixli qәrarı itdiyi üçün etibarsız sayılır.

Әhmәdova Anara Emil qızına Bakı Mühәndislik Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Mübarizli Mehdi Eldәniz oğluna Bakı Biznes Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Abdullayev Әbülfәz Nadir oğlunun adına, Bakı şәhәri, Xәzәr rayonu, Buzovna qәsәbәsi, 332 saylı sahәyә verilmiş çıxarış (seriya MH N0154685) itdiyi üçün etibarsız sayılır.

Mәmmәdova Rәna İbrahim qızının adına, Bakı şәhәri, Sabunçu rayonu, Lәhiş bağ sahәsi, bağ evi N 4950 a ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

Mәmmәdli Rüstәm Bәhruz oğluna Azәrbaycan Dövlәt İqtisad Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

## Danimarka polisi kenqurunu axtarışa verdi

Danimarkada kenquru polis tәrәfindәn axtarışa verilib. "Trend" bildirir ki, Cәnubi Yutlandiya regionunun polisi fәrdi yaşayış evindәn qaçan kenqurunu axtarışa verib. Polis yerli sakinlәrdәn qaçmış heyvanı gördüklәri tәqdirdә, onlara mәlumat vermәyi xahiş ediblәr. "Biz fiziki şәxsә mәxsus vә Oster Lindet rayonundan evdәn qaçan kenqurunu axtarırıq", - deyә polisin "Tvitter" sosial şәbәkәsindә yaydığı mәlumatda bildirilir.







**Qoç** - Heç olmasa, bu gün inadkar, tәrs olmayın. Çevik, kompromisslәrә meylli, dil tapmağa hazır olun. İşdә rәhbәrlik vә hәmkarlarla olan çoxdankı fikir ayrılıqlarını aradan qaldırın. Belә olarsa, çalışma ritminin artdığını, mühitin yaxşılaşdığını hiss edәcәksiniz.



**Buğa** - Yaşam vә fәaliyyәt arealında yenilәnmәlәr aparmaq üçün әlverişli zamandır. Alış-veriş etmәk olar. Bәyәndiyiniz әşyanı vә ya mәhsulu almaq üçün pul xәrclәmәkdәn çәkinmәyin. Axşam saatlarında yaxşı istirahәt edin.



**Әkizlәr** - Peşәkar fәaliyyәt müstәvisindә vә şәxsi münasibәtlәrdә sürprizlәr yaşana bilәr. Yaşananlara ilk әvvәl tәәccüblәnәcәksiniz. Lakin sonradan hadisәlәr sizә rutin tәsir bağışlayacaq.



**Xәrçәng** - İndiyәdәk hәllolunmaz, müşkül sayılan mәsәlәlәri asanlıqla çözә bilәrsiniz. Darıxdığınız insanla qәfil görüş baş tuta bilәr. Bir zamanlar sıx münasibәtlәrdә olduğunuz, amma sonradan tәmasları kәsdiyiniz insanla görüş olacaq.



**Şir** - Rәğbәt bәslәdiyiniz insanda özünüzlә bağlı xoş hisslәr yaratmaq üçün әlverişli zamandır. Tәbii, sәmimi olun. Olduğundan artıq görünmәyә çalışmayın. İşdә rәhbәrlik vә hәmkarlarla münasibәtlәr harmonik olacaq.



**Qız** - Bir gün üçün anlaşılmazlıqlar vә çәtinliklәrin sayı ifrata çatacaq. Ruhdan düşmәyin. Hәr şey yoluna düşәcәk. Problemlәri hәll edәn zaman әzmkar olun. Müttәfiqlәrin yardımlarına arxalanaraq rәqiblәri üstәlәyin.



**Tәrәzi** - Sizi qәtiyyәtli vә inadkar insan saymayan insanlar yanıldıqlarını anlamalıdırlar. Buna nail olun. Sәdlәrә vә maneәlәrә fikir vermәdәn mәqsәdә doğru inamla irәlilәyin. Bәdxahlarınızın ehtimallarının puç olduğunu göstәrin, hәdәfә daha tez çatın.



**Әqrәb** - Bacarıq vә biliklәrinizә kimsәnin qiymәt vermәdiyini düşünmәyin. Bu, yanlışdır, illüziyadır. Bu gün tәriflәnmir vә dәyәrlәndirilmirsinizsә, demәli, sizә ya paxıllıq edirlәr, ya da kimsә hisslәrini açıqlamağa utanır.



**Oxatan** - Köhnә dostlar vә ya әvvәlki iş yerinizdәki sabiq hәmkarlarınızdan alınan xәbәrlәr sizi sevindirәcәk. Uzun müddәtdәn bәri uğurlu vә effektiv fәaliyyәt göstәrdiyiniz insanlardan birindәn işgüzar tәklif alacaqsınız.



**Oğlaq** - Rәğbәt bәslәmәdiyiniz, hәtta zәhlәniz gedәn insanlarla çalışmalı olacaqsınız. İrada, tәnqidә sakit reaksiya verin. Konstruktiv olmayan tәnqidlәri qulaqardına vurun. Mәntiqli tәnqiddәn isә nәticә çıxarın.



**Dolça** - Әvvәlcәdәn hazırladığınız planları reallaşdırmaq üçün yaxşı gündür. Xırdalıqlar vә detallar fikrinizi yayındırmasın. Bütün diqqәti әsas işә yönәldin. İkinci dәrәcәli işlәrlә etibar etdiyiniz insan maraqlana bilәr.



**Balıqlar** - Yaxın әtrafınızdakı insanlar sizә pis olmayan mәslәhәtlәr verirlәr. Bildiyiniz kimi davranaraq kobud sәhvlәrә yol vermәyin. İşdә karyera inkişafı ilә bağlı mәsәlәlәri rәhbәrliklә müzakirә etmәk olar.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*



## Yerin dәrinliklәrindә nәhәng dağlar aşkar edildi

**Boliviyadakı güclü zәlzәlә alimlәrә Yerin yuxarı vә aşağı mantiya qatları arasındakı sәrhәdin strukturunu tәdqiq etmәyә imkan yaradıb.**

Bu sәrhәd nәhәng dağ zirvәlәri vә dәrin yarğanlarla әhatәlidir. Nәticәlәr "Science" jurnalında dәrc edilib. Çinli alim Zvenbo Vu deyib: "Mantiya qatları arasındakı sәrhәd planetin sәthindәn daha sәrtdir. Yeraltı dağlar yerüstü dağlardan daha hündürdür. Biz onların dәqiq hündürlüyünü hesablaya bilmәmişik, amma görünür ki, Yerdәki istәnilәn zirvәdәn hündürdürlәr".

***Hazırladı: Ramil QULİYEV***

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 5200*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.